*Azərbaycan Milli Elmlər Akademiyası İqtisad Elmləri Jurnalı 2026, №1*
*Azerbaijan National Academy of Sciences Journal of Economic Sciences 2026, №1*

**İqtisadi nəzəriyyə. Ümumi iqtisadiyyat. Economic theory. General economics.**
**2026 (1). səh. 8-33. 2026 (1). pp. 8-33. 2026 (1). стр. 8-33.**
**UOT:31;33;338.; JEL:A11;A13;A19;F63;I31;I38.**
**https://doi.org/10.59849/2519-8130.2026.1.8**

**Şahbaz Muradov**
*i.e.d., prof. AMEA-nın müxbir üzvü*
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu*
*"Demoqrafiya və məşğulluq problemləri" şöbəsinin müdiri*

**Yaşar Məmmədov**
*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutu*
*"Monetar və fiskal tənzimləmə problemləri" şöbəsinin müdiri, i.e.d.*
*E-mail: y.mammadov59@gmail.com*

# DEMOQRAFİK İNKİŞAF VƏ AİLƏ İNSTİTUTUNUN TRANSFORMASİYASI: QLOBAL DƏYİŞİKLİKLƏR, YENİ REALLIQLAR VƏ İNKİŞAF PERSPEKTİVLƏRİ

## XÜLASƏ

Məqalədə müasir dövrdə qlobal demoqrafik transformasiya prosesləri və ailə institutunda baş verən struktur dəyişikliklər sosial-iqtisadi inkişaf kontekstində kompleks şəkildə tədqiq edilmişdir. Tədqiqatın əsas məqsədi demoqrafik dəyişikliklərin ailə institutuna, əmək bazarına, insan kapitalının formalaşmasına, sosial müdafiə sisteminə, fiskal dayanıqlılığa və dövlət siyasətinə təsirini qiymətləndirmək, həmçinin Azərbaycanın mövcud demoqrafik vəziyyətini beynəlxalq inkişaf meylləri fonunda təhlil etməkdir. Tədqiqat zamanı müqayisəli təhlil, sistemli yanaşma, analitik ümumiləşdirmə və məzmun təhlili metodlarından istifadə edilmişdir. Araşdırma BMT, Dünya Bankı, İƏİT (OECD), BƏT (ILO), BMT-nin İnkişaf Proqramı (UNDP), BMT-nin Əhali Fondu (UNFPA) və digər beynəlxalq təşkilatların son dövr üzrə hesabatları, eləcə də Azərbaycanın rəsmi statistik məlumatları əsasında aparılmışdır. Müəyyən edilmişdir ki, müasir demoqrafik dəyişikliklər yalnız doğum və ölüm göstəricilərinin dinamikası ilə məhdudlaşmır, eyni zamanda ailə modelinin transformasiyası, nikah yaşının yüksəlməsi, reproduktiv davranışın dəyişməsi, urbanizasiya, miqrasiya, qadınların əmək bazarında iştirakının artması, rəqəmsallaşma və fərdiləşmə prosesləri ilə sıx əlaqəlidir. Bu dəyişikliklər əmək bazarının strukturuna, insan kapitalının keyfiyyətinə, istehlak bazarına, sosial müdafiə sisteminə, pensiya təminatına, səhiyyə və təhsil siyasətinə, regional inkişafın balansına və dövlət maliyyəsinin dayanıqlılığına birbaşa təsir göstərir.

Məqalədə müxtəlif ölkələrin ailə və demoqrafik siyasəti müqayisəli şəkildə qiymətləndirilmiş, uğurlu beynəlxalq təcrübənin əsas xüsusiyyətləri müəyyən edilmişdir. Təhlil göstərmişdir ki, demoqrafik siyasətin effektivliyi ayrı-ayrı maliyyə təşviqlərindən deyil, ailə siyasəti, məşğulluq, mənzil təminatı, sosial müdafiə, təhsil və səhiyyə siyasətlərinin qarşılıqlı inteqrasiyasından asılıdır. Azərbaycan üzrə aparılmış qiymətləndirmə göstərmişdir ki, ölkə demoqrafik keçidin yeni mərhələsindədir. Doğum səviyyəsinin tədricən azalması, yaş strukturunun dəyişməsi, urbanizasiyanın sürətlənməsi və ailə institutunun transformasiyası uzunmüddətli perspektivdə əmək bazarı, insan kapitalı, fiskal dayanıqlılıq və regional inkişaf üçün yeni çağırışlar yaradır. Bununla

yanaşı, ölkənin nisbətən gənc demoqrafik strukturu və ailə institutunun yüksək sosial əhəmiyyəti dayanıqlı inkişaf üçün mühüm potensial kimi qiymətləndirilmişdir.

Tədqiqatın elmi yeniliyi demoqrafik inkişaf, ailə institutunun transformasiyası və sosial-iqtisadi inkişaf arasında qarşılıqlı əlaqələrin vahid analitik çərçivədə sistemləşdirilməsində, həmçinin Azərbaycan üçün ailə institutu–insan kapitalı–əmək bazarı–fiskal dayanıqlılıq–regional inkişaf əlaqələrinə əsaslanan inteqrasiya olunmuş demoqrafik siyasət yanaşmasının əsaslandırılmasındadır.

**Açar sözlər:** demoqrafik inkişaf, ailə institutu, demoqrafik transformasiya, əmək bazarı, sosial müdafiə, fiskal dayanıqlılıq, dövlət siyasəti.

**Shahbaz Muradov**
*doctor of economic sciences, professor, Corresponding Member of the Azerbaijan National Academy of Sciences (ANAS)*
*Institute of Economics, Ministry of Science and Education of the Republic of Azerbaijan*
*Head of the Department of "Demography and Employment Problems"*

**Yashar Mammadov**
*Ministry of Science and Education of the Republic of Azerbaijan Institute of Economics,*
*head of department "Monetary and problems of fiscal regulatyion"*
*doctor of economics.*

## DEMOGRAPHIC DEVELOPMENT AND TRANSFORMATION OF THE FAMILY INSTITUTION: GLOBAL CHANGES, NEW REALITIES, AND DEVELOPMENT PROSPECTS

**Abstract**

This article provides a comprehensive examination of contemporary global demographic transformation processes and the structural changes occurring within the family institution, situated within the context of socio-economic development. The primary aim of the study is to assess the impact of demographic change on the family institution, the labor market, human capital formation, the social protection system, fiscal sustainability, and public policy, as well as to analyze Azerbaijan's current demographic situation against the backdrop of international development trends. The research employs comparative analysis, a systemic approach, analytical generalization, and content analysis methods. The study draws on recent reports from the United Nations, the World Bank, the OECD, the ILO, the UNDP, the UNFPA, and other international organizations, as well as official statistical data from Azerbaijan. It is established that contemporary demographic change is not confined to fluctuations in birth and death rates alone, but is closely linked to the transformation of the family model, rising age at marriage, shifts in reproductive behavior, urbanization, migration, growing female labor force participation, digitalization, and processes of individualization. These changes exert a direct influence on the structure of the labor market, the quality of human capital, the consumer market, the social protection system, pension provision, healthcare and education policy, the balance of regional development, and the sustainability of public finances.

The article offers a comparative assessment of family and demographic policies across various countries, identifying the key features of successful international practice. The analysis demonstrates that the effectiveness of demographic policy depends not on isolated financial incentives, but on the mutual integration of family policy with employment, housing provision, social protection, education,

and healthcare policies. The assessment conducted for Azerbaijan reveals that the country is entering a new stage of demographic transition. The gradual decline in fertility, the shifting age structure, accelerating urbanization, and the transformation of the family institution create new challenges for the labor market, human capital, fiscal sustainability, and regional development over the long term. At the same time, the country's relatively young demographic structure and the high social significance of the family institution are assessed as important potential assets for sustainable development.

The scientific novelty of the study lies in the systematization, within a unified analytical framework, of the interrelationships among demographic development, the transformation of the family institution, and socio-economic development, as well as in substantiating an integrated demographic policy approach for Azerbaijan grounded in the linkages among the family institution, human capital, the labor market, fiscal sustainability, and regional development.

**Keywords:** demographic development, family institution, demographic transformation, labor market, social protection, fiscal sustainability, public policy.

**Шахбаз Мурадов**
*д.э.н., проф., член-корреспондент НАНА*
*Институт экономики Министерства науки и образования*
*Азербайджанской Республики*
*заведующий отделом «Проблемы демографии и занятости»*

**Яшар Мамедов**
*Институт Экономики Министерства Науки и Образования*
*Азербайджанской Республики, заведующий отделом*
*«Проблемы денежно-кредитного и фискального регулирования», д.э.н.*

## ДЕМОГРАФИЧЕСКОЕ РАЗВИТИЕ И ТРАНСФОРМАЦИЯ ИНСТИТУТА СЕМЬИ: ГЛОБАЛЬНЫЕ ИЗМЕНЕНИЯ, НОВЫЕ РЕАЛИИ И ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ

### РЕЗЮМЕ

В статье проведено комплексное исследование процессов глобальной демографической трансформации современности и структурных изменений, происходящих в институте семьи, в контексте социально-экономического развития. Основная цель исследования заключается в оценке влияния демографических изменений на институт семьи, рынок труда, формирование человеческого капитала, систему социальной защиты, фискальную устойчивость и государственную политику, а также в анализе текущей демографической ситуации в Азербайджане на фоне международных тенденций развития. В ходе исследования использованы методы сравнительного анализа, системного подхода, аналитического обобщения и контент-анализа. Исследование основано на последних докладах ООН, Всемирного банка, ОЭСР, МОТ, ПРООН, ЮНФПА и других международных организаций, а также на официальных статистических данных Азербайджана. Установлено, что современные демографические изменения не ограничиваются лишь динамикой показателей рождаемости и смертности, а тесно связаны с трансформацией модели семьи, повышением возраста вступления в брак, изменением репродуктивного поведения, урбанизацией, миграцией,

расширением участия женщин на рынке труда, цифровизацией и процессами индивидуализации. Эти изменения оказывают непосредственное влияние на структуру рынка труда, качество человеческого капитала, потребительский рынок, систему социальной защиты, пенсионное обеспечение, политику в сфере здравоохранения и образования, баланс регионального развития и устойчивость государственных финансов.

В статье в сравнительном плане оценена семейная и демографическая политика различных стран, определены основные особенности успешного международного опыта. Анализ показал, что эффективность демографической политики зависит не от отдельных финансовых стимулов, а от взаимной интеграции семейной политики с политикой занятости, жилищного обеспечения, социальной защиты, образования и здравоохранения. Проведённая по Азербайджану оценка показала, что страна находится на новом этапе демографического перехода. Постепенное снижение уровня рождаемости, изменение возрастной структуры, ускорение урбанизации и трансформация института семьи создают в долгосрочной перспективе новые вызовы для рынка труда, человеческого капитала, фискальной устойчивости и регионального развития. Наряду с этим, относительно молодая демографическая структура страны и высокая социальная значимость института семьи оцениваются как важный потенциал для устойчивого развития.

Научная новизна исследования заключается в систематизации в единой аналитической рамке взаимосвязей между демографическим развитием, трансформацией института семьи и социально-экономическим развитием, а также в обосновании интегрированного подхода к демографической политике для Азербайджана, основанного на взаимосвязях «институт семьи – человеческий капитал – рынок труда – фискальная устойчивость – региональное развитие».

**Ключевые слова:** демографическое развитие, институт семьи, демографическая трансформация, рынок труда, социальная защита, фискальная устойчивость, государственная политика.

**Giriş**

Müasir dövrdə demoqrafik inkişaf yalnız əhalinin sayında baş verən dəyişiklikləri xarakterizə edən statistik proses kimi deyil, iqtisadi, sosial, institusional və mədəni transformasiyaların mərkəzində dayanan çoxşaxəli inkişaf göstəricisi kimi qiymətləndirilir. Qloballaşmanın dərinləşməsi, urbanizasiya proseslərinin sürətlənməsi, rəqəmsal texnologiyaların gündəlik həyata nüfuzu, əmək bazarının çevikləşməsi və həyat tərzində müşahidə olunan dəyişikliklər demoqrafik davranışın mahiyyətini əhəmiyyətli dərəcədə yeniləşdirmişdir. Bu baxımdan demoqrafik proseslər artıq təkcə doğum, ölüm və miqrasiya göstəricilərinin statistik təhlili ilə məhdudlaşmır; onlar dövlətlərin iqtisadi dayanıqlılığı, insan kapitalının inkişafı, sosial müdafiə sisteminin davamlılığı, əmək resurslarının formalaşması və uzunmüddətli inkişaf strategiyalarının əsas determinantlarından biri kimi çıxış edir [28]. Son onilliklərdə qlobal demoqrafik mənzərə əhəmiyyətli struktur dəyişiklikləri ilə səciyyələnir. Dünyanın əksər inkişaf etmiş ölkələrində doğum səviyyəsinin əhalinin sadə təkrar istehsal həddindən aşağı düşməsi, əhalinin yaşlanmasının sürətlənməsi, orta ömür uzunluğunun artması və əmək qabiliyyətli əhalinin nisbi payının azalması yeni sosial-iqtisadi reallıqlar formalaşdırmışdır. Eyni zamanda, Afrika və Asiyanın bir sıra ölkələrində yüksək doğum səviyyəsi, sürətli əhali artımı və intensiv urbanizasiya tamamilə fərqli demoqrafik inkişaf modelini meydana çıxarmışdır. Beləliklə, XXI əsrin demoqrafik mənzərəsi əvvəlki dövrlərdən fərqli olaraq vahid inkişaf trayektoriyası deyil,

regionların iqtisadi inkişaf səviyyəsi, sosial institutları və institusional imkanları ilə müəyyən olunan müxtəlif inkişaf modelləri üzərində qurulur [28].

Bu kimi dəyişikliklərin ən mühüm xüsusiyyətlərindən biri ailə institutunun transformasiyasıdır. Əgər XX əsrdə ailə əsasən əhalinin təkrar istehsalını təmin edən sosial institut kimi qiymətləndirilirdisə, hazırda onun funksional çərçivəsi xeyli genişlənmişdir. Müasir ailə modeli insan kapitalının formalaşdırılması, sosial inteqrasiyanın təmin edilməsi, nəsillərarası münasibətlərin qorunması, sosial dayanıqlılığın gücləndirilməsi və iqtisadi inkişafın dəstəklənməsi baxımından strateji əhəmiyyət daşıyan instituta çevrilmişdir. Bununla yanaşı, nikah yaşının yüksəlməsi, boşanmaların artması, doğumun gecikdirilməsi, qadınların əmək bazarında iştirak səviyyəsinin yüksəlməsi, təhsil müddətinin uzanması və fərdiləşmə meyillərinin güclənməsi ailə münasibətlərinin strukturunda yeni keyfiyyət dəyişiklikləri yaratmışdır. Nəticədə ailə institutunun transformasiyası demoqrafik inkişafın həm səbəbi, həm də nəticəsi kimi çıxış edir [36].

Müasir elmi ədəbiyyatda demoqrafik inkişaf ilə ailə institutunun qarşılıqlı əlaqəsi daha çox kompleks sosial-iqtisadi sistem yanaşması çərçivəsində izah edilir. Bu yanaşmaya görə, ailə institutunda baş verən dəyişikliklər yalnız mədəni və ya psixoloji amillərlə deyil, iqtisadi sabitlik, məşğulluq imkanları, mənzil təminatı, gəlir səviyyəsi, sosial müdafiə mexanizmləri, gender bərabərliyi və dövlət siyasətinin effektivliyi ilə sıx bağlıdır. Xüsusilə son illərdə aparılmış beynəlxalq tədqiqatlar göstərir ki, doğum səviyyəsinin azalması bir çox hallarda insanların valideyn olmaq istəyinin zəifləməsi ilə deyil, arzu olunan ailə modelinin reallaşdırılmasına mane olan sosial və iqtisadi məhdudiyyətlərlə izah olunur. Bu baxımdan müasir demoqrafik siyasətin əsas məqsədi yalnız doğum göstəricilərinin artırılması deyil, insanların ailə qurmaq və istədikləri sayda övlad sahibi olmaq imkanlarını genişləndirən sosial-iqtisadi mühitin formalaşdırılmasıdır [36].

Qlobal demoqrafik dəyişikliklər dövlətlərin iqtisadi inkişaf modelinə də ciddi təsir göstərir. Əhalinin yaşlanması pensiya və sosial müdafiə sistemlərinin maliyyə dayanıqlığını sınaq qarşısında qoyur, əmək bazarında ixtisaslı işçi qüvvəsinə olan tələbi artırır, səhiyyə xərclərinin strukturunu dəyişdirir və dövlət büdcəsinin prioritet istiqamətlərinə yenidən baxılmasını zəruri edir. Eyni zamanda, aşağı doğum səviyyəsi uzunmüddətli perspektivdə insan kapitalının formalaşmasına, innovasiya potensialına və iqtisadi artım tempinə təsir göstərən əsas amillərdən birinə çevrilir. Buna görə də demoqrafik siyasət artıq yalnız sosial siyasətin tərkib hissəsi deyil, makroiqtisadi inkişaf strategiyasının ayrılmaz komponenti kimi qəbul edilir [25].

Azərbaycan da bu qlobal proseslərdən kənarda qalmamışdır. Ölkədə son illərdə doğum göstəricilərinin dinamikası, nikah və boşanma nisbətlərində müşahidə olunan dəyişikliklər, urbanizasiya proseslərinin sürətlənməsi, daxili və xarici miqrasiya axınları, əhalinin yaş strukturunda baş verən dəyişikliklər və ailə münasibətlərində yeni davranış modellərinin formalaşması demoqrafik inkişafın keyfiyyətcə yeni mərhələyə keçdiyini göstərir. Bu proseslərin hər biri ayrıca əhəmiyyət kəsb etsə də, onların qarşılıqlı təsiri ailə institutunun gələcək inkişaf istiqamətlərinin və dövlətin demoqrafik siyasətinin yenidən qiymətləndirilməsini zəruri edir. Xüsusilə qlobal təcrübənin öyrənilməsi və Azərbaycanın sosial-iqtisadi xüsusiyyətləri nəzərə alınmaqla yeni yanaşmaların müəyyənləşdirilməsi elmi və praktik baxımdan mühüm aktuallıq kəsb edir.

Məhz bu baxımdan təqdim olunan tədqiqatın əsas məqsədi qlobal demoqrafik dəyişikliklərin ailə institutuna təsir mexanizmlərini sistemli şəkildə təhlil etmək, müasir inkişaf meyillərini və onların sosial-iqtisadi nəticələrini qiymətləndirmək, beynəlxalq təcrübə fonunda Azərbaycanın demoqrafik inkişaf xüsusiyyətlərini araşdırmaq və ailə institutunun möhkəmləndirilməsi

istiqamətində elmi cəhətdən əsaslandırılmış inkişaf perspektivlərini müəyyənləşdirməkdir. Məqalədə demoqrafik inkişaf statistik proses kimi deyil, ailə, insan kapitalı, sosial rifah və iqtisadi inkişaf arasında formalaşan qarşılıqlı əlaqələrin vahid sistemi kimi nəzərdən keçirilir ki, bu da mövzunun elmi yeniliyini və praktik əhəmiyyətini artırır.

**Qlobal demoqrafik transformasiyanın müasir inkişaf meylləri**

XXI əsrin ilk dövrü - dünya demoqrafik sistemində əvvəlki əsrdən keyfiyyətcə fərqlənən yeni inkişaf mərhələsinin formalaşması ilə səciyyələnir. Əgər XX əsrin ikinci yarısında əsas diqqət dünya əhalisinin sürətli artımına və onun iqtisadi nəticələrinə yönəlirdisə, hazırda beynəlxalq elmi ictimaiyyət demoqrafik transformasiyanı daha mürəkkəb və çoxkomponentli proses kimi qiymətləndirir. Müasir yanaşmalara görə demoqrafik inkişaf yalnız əhalinin sayındakı dəyişikliklərlə məhdudlaşmır; doğum və ölüm səviyyələrinin dəyişməsi, yaş strukturunun transformasiyası, ailə münasibətlərinin yenilənməsi, miqrasiya axınlarının intensivləşməsi, urbanizasiya, insan kapitalının hərəkətliliyi və sosial institutların uyğunlaşması vahid sistem daxilində qarşılıqlı təsir göstərən proseslər kimi çıxış edir. Məhz buna görə haqlı olaraq da, demoqrafik dəyişikliklər artıq sosial statistikanın predmeti olmaqdan çıxaraq iqtisadi artım, fiskal dayanıqlılıq, əmək bazarı və milli təhlükəsizlik kimi strateji istiqamətlərlə sıx əlaqələndirilir [28].

Son onilliklərdə müşahidə olunan əsas tendensiya dünya əhalisinin artım tempinin ardıcıl şəkildə zəifləməsidir. BMT-nin son hesablamalarına əsasən, 2024-cü ildə dünya əhalisi 8,2 milyard nəfəri keçsə də, illik artım sürəti əvvəlki onilliklərlə müqayisədə əhəmiyyətli dərəcədə aşağı düşmüşdür. Bu proses təsadüfi xarakter daşımır və demoqrafik keçid nəzəriyyəsinin növbəti mərhələsinə uyğun olaraq doğum səviyyəsinin azalması, urbanizasiyanın genişlənməsi, qadınların təhsil və məşğulluq imkanlarının artması, həmçinin ailə planlaşdırılması mexanizmlərinin yayılması ilə izah olunur. Beləliklə, əhali sayının artımı davam etsə də, onun dinamikası tədricən sabitləşmə mərhələsinə yaxınlaşır və XXI əsrin ikinci yarısında bir sıra regionlarda əhali azalmasının başlanacağı proqnozlaşdırılır [28]. Qlobal demoqrafik transformasiyanın müasir mərhələdə kəmiyyət artımından daha çox struktur dəyişiklikləri ilə xarakterizə olunduğu daha çox diqqəti çəkir (qrafik 1). Belə ki, dünya əhalisinin sayı 2023–2024-cü illərdə artmağa davam etsə də, əhalinin illik artım tempinin aşağı səviyyədə qalması demoqrafik dinamikanın tədricən zəiflədiyini və bir çox ölkələrin demoqrafik keçidin son mərhələlərinə yaxınlaşdığını göstərir. Bu meyl əhalinin sayından daha çox onun yaş, məkan və sosial strukturunda baş verən dəyişikliklərin iqtisadi və sosial inkişaf üçün həlledici əhəmiyyət daşıdığını təsdiqləyir.

Qrafik 1-də əks olunan doğum əmsalının azalması qlobal demoqrafik transformasiyanın əsas determinantlarından biri kimi çıxış edir. Bir çox ölkədə doğum səviyyəsinin əhalinin sadə təkrar istehsalı üçün zəruri hesab olunan həddən aşağı enməsi uzunmüddətli perspektivdə əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin azalmasına, asılılıq əmsalının yüksəlməsinə və sosial təminat sistemləri üzərində fiskal yükün artmasına səbəb olur. Bu proseslər iqtisadi artımın dayanıqlılığına, əmək bazarının tarazlığına və insan kapitalının formalaşmasına birbaşa təsir göstərən mühüm amillər sırasındadır. Digər mühüm tendensiya əhalinin yaşlanmasının sürətlənməsidir. Qrafikdə 65 yaş və yuxarı əhalinin payının, həmçinin median yaş göstəricisinin artması səhiyyə xidmətlərinə, pensiya təminatına və sosial müdafiə sistemlərinə tələbin yüksəldiyini göstərir. Əhalinin yaş strukturunda baş verən bu dəyişikliklər dövlətlərin fiskal siyasətinin prioritetlərinin yenidən müəyyənləşdirilməsini, yaşlı əhalinin iqtisadi fəallığının artırılmasını və əmək bazarının yeni şəraitə uyğunlaşdırılmasını

zəruri edir. Urbanizasiya və beynəlxalq miqrasiya göstəricilərinin yüksəlməsi isə qlobal demoqrafik transformasiyanın məkan aspektini əks etdirir. Şəhər əhalisinin artması iqtisadi aktivliyin və innovasiya potensialının yüksəlməsinə şərait yaratsa da, iri şəhərlərdə infrastrukturun yüklənməsi, mənzil təminatı, ekoloji dayanıqlılıq və sosial xidmətlərin əlçatanlığı kimi problemləri daha da aktuallaşdırır. Eyni zamanda beynəlxalq miqrasiya axınlarının genişlənməsi əmək resurslarının beynəlxalq bölgüsünü gücləndirməklə yanaşı, donor və qəbul edən ölkələrin demoqrafik strukturunda yeni dəyişikliklər formalaşdırır.

Qrafik 1.

**Qlobal demoqrafik transformasiyanın müasir inkişaf meyllərini xarakterizə edən əsas göstəricilər**




**Mənbə:** Qrafik [28; 29; 35; 41] mənbələri əsasında müəliflər tərəfindən hazırlanmışdır.

Ümumilikdə, qrafikdə təqdim olunan göstəricilər göstərir ki, müasir dövrdə qlobal demoqrafik transformasiya yalnız əhalinin sayındakı dəyişikliklərlə məhdudlaşmır. Əsas meyllər doğum səviyyəsinin azalması, əhalinin yaşlanması, urbanizasiyanın dərinləşməsi və miqrasiya proseslərinin intensivləşməsi fonunda formalaşan yeni demoqrafik reallıqlarla xarakterizə olunur. Bu dəyişikliklər iqtisadi artımın keyfiyyətinə, fiskal dayanıqlılığa, əmək bazarının strukturuna və sosial siyasətin prioritetlərinə birbaşa təsir göstərdiyindən, dövlətlərin uzunmüddətli inkişaf strategiyalarında demoqrafik amilin sistemli şəkildə nəzərə alınmasını zəruri edir. Məhz buna görə də demoqrafik transformasiya müasir dövrdə təkcə sosial proses deyil, həm də iqtisadi inkişafın, insan kapitalının və milli təhlükəsizliyin strateji determinantlarından biri kimi qiymətləndirilməlidir.

Qlobal demoqrafik transformasiyanın mühüm xüsusiyyətlərindən biri onun regionlar üzrə qeyri-bərabər xarakter daşımasıdır. İnkişaf etmiş ölkələrin əksəriyyətində doğum əmsalı artıq uzun müddətdir əhalinin sadə təkrar istehsal səviyyəsindən aşağıdır. Əksinə, Subsahara Afrikasının bir çox dövlətlərində və Cənubi Asiyanın müəyyən hissələrində yüksək doğum səviyyəsi hələ də qorunub saxlanılır. Bu fərqlər gələcəkdə dünya əhalisinin coğrafi bölgüsünü əhəmiyyətli dərəcədə dəyişdirəcəkdir. BMT hesab edir ki, XXI əsrin sonuna qədər dünya əhalisinin artımının böyük hissəsi məhz Afrika ölkələrinin payına düşəcək. Bunun nəticəsində əmək resurslarının, istehlak bazarlarının və investisiya istiqamətlərinin qlobal xəritəsində yeni balans formalaşacaq [28].

Doğum səviyyəsinin azalması hazırda qlobal demoqrafik transformasiyanın əsas hərəkətverici amillərindən biri hesab edilir. Bir çox ölkələrdə ailələrin orta uşaq sayı son əlli ildə iki dəfədən çox azalmışdır. Bu dəyişiklik ilk növbədə sosial-iqtisadi inkişafın yeni mərhələsi ilə bağlıdır. Qadınların ali təhsilə çıxış imkanlarının genişlənməsi, əmək bazarında iştirak səviyyəsinin yüksəlməsi, yaşayış və mənzil xərclərinin artması, uşaqların təhsilinə çəkilən investisiyaların çoxalması və fərdi həyat strategiyalarının dəyişməsi ailələrin reproduktiv davranışına birbaşa təsir göstərmişdir. Nəticədə ailələr daha az sayda övlad planlaşdırmağa üstünlük verir, ilk nikah və ilk övladın doğulması isə daha gec yaşlara keçir. Bu meyl artıq yalnız inkişaf etmiş ölkələr üçün deyil, orta gəlirli dövlətlər üçün də xarakterik xüsusiyyətə çevrilmişdir [25].

Doğum göstəricilərinin azalması ilə paralel olaraq orta ömür uzunluğunun artması dünya əhalisinin yaş strukturunda ciddi dəyişikliklər yaradır. Son yarım əsrdə səhiyyə xidmətlərinin inkişafı, peyvəndləmə proqramlarının genişlənməsi, yoluxucu xəstəliklərə qarşı mübarizənin güclənməsi və həyat keyfiyyətinin yüksəlməsi insanların daha uzun ömür sürməsinə şərait yaratmışdır. Bunun nəticəsində yaşlı əhalinin xüsusi çəkisi davamlı şəkildə artır. Bu dəyişiklik ilk baxışdan müsbət sosial nailiyyət kimi qiymətləndirilsə də, uzunmüddətli perspektivdə əmək bazarı, pensiya sistemi və dövlət maliyyəsi üçün yeni çağırışlar formalaşdırır. Çünki əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin azalması iqtisadi artımın potensial tempini zəiflədir, sosial təminat sistemlərinə düşən maliyyə yükünü isə artırır [27].

Əhalinin yaşlanması ilə əmək bazarında baş verən dəyişikliklər arasında birbaşa səbəb–nəticə əlaqəsi mövcuddur. İşçi qüvvəsinin azalması bir tərəfdən müəssisələrin ixtisaslı əmək resurslarına çıxış imkanlarını məhdudlaşdırır, digər tərəfdən isə məhsuldarlığın artırılması məqsədilə rəqəmsallaşma və avtomatlaşdırma proseslərini sürətləndirir. Başqa sözlə, demoqrafik transformasiya texnoloji modernləşməni stimullaşdıran amillərdən birinə çevrilir. Məhz buna görə son illərdə bir çox inkişaf etmiş ölkələr süni intellekt, robotlaşdırma və yüksək məhsuldarlığa əsaslanan istehsal modellərinə daha çox investisiya yönəldirlər. Eyni zamanda pensiya yaşının mərhələli şəkildə artırılması, aktiv yaşlanma siyasəti və yaşlı insanların əmək bazarında saxlanılması üzrə proqramlar geniş tətbiq edilir [25].

Hesab etmək mümkündür ki, müasir qlobal demoqrafik transformasiya yalnız əhalinin sayının dəyişməsi ilə məhdudlaşmayan, sosial institutların, iqtisadi münasibətlərin və dövlət siyasətinin yeni reallıqlara uyğunlaşmasını tələb edən kompleks inkişaf prosesidir. Əhali artımının zəifləməsi, doğum səviyyəsinin azalması, orta ömür uzunluğunun artması və yaşlanmanın sürətlənməsi bir-biri ilə qarşılıqlı əlaqədə çıxış edərək XXI əsrin demoqrafik mənzərəsini formalaşdırır. Bu proseslərin növbəti mərhələsi isə urbanizasiya, beynəlxalq miqrasiya, ailə institutunun transformasiyası və rəqəmsal cəmiyyətin formalaşması ilə daha da dərinləşir ki, bunlar növbəti hissədə geniş təhlil olunacaq.

Qlobal demoqrafik transformasiya yalnız əhalinin say və yaş strukturunda baş verən dəyişikliklərlə məhdudlaşmır. Bu proses eyni zamanda insanların yaşayış məkanının dəyişməsi, ailə münasibətlərinin yenidən formalaşması, beynəlxalq miqrasiya axınlarının intensivləşməsi və rəqəmsal texnologiyaların gündəlik həyatın bütün sahələrinə nüfuz etməsi ilə müşayiət olunur. Məhz bu amillərin qarşılıqlı təsiri nəticəsində demoqrafik proseslər əvvəlki dövrlərlə müqayisədə daha mürəkkəb xarakter almış, sosial-iqtisadi inkişafın istiqamətlərini müəyyən edən əsas strateji faktorlardan birinə çevrilmişdir. Hazırda artıq urbanizasiya demoqrafik transformasiyanın ən sürətli inkişaf edən istiqamətlərindən biridir. BMT-nin məlumatlarına görə, hazırda dünya əhalisinin

təxminən 57%-i şəhərlərdə yaşayır və 2050-ci ilə qədər bu göstəricinin 68%-ə çatacağı gözlənilir. Şəhərləşmənin sürətlənməsi iqtisadi imkanların böyük şəhərlərdə cəmləşməsi, xidmət sektorunun genişlənməsi və infrastrukturun inkişafı ilə əlaqədardır. Bununla yanaşı, urbanizasiya ailə modelinə və reproduktiv davranışa da birbaşa təsir göstərir. Şəhər həyatının yüksək yaşayış xərcləri, mənzil təminatı problemləri, peşəkar karyeraya üstünlük verilməsi və fərdi həyat tərzinin geniş yayılması ailələrin daha az sayda uşaq planlaşdırmasına səbəb olur. Beləliklə, urbanizasiya iqtisadi inkişaf üçün yeni imkanlar yaratsa da, uzunmüddətli perspektivdə doğum səviyyəsinin azalmasını sürətləndirən mühüm amillərdən birinə çevrilir [29].

Urbanizasiya ilə paralel inkişaf edən digər mühüm proses beynəlxalq miqrasiyanın yeni mərhələyə keçməsidir. Əgər əvvəlki dövrlərdə miqrasiya əsasən iqtisadi səbəblərlə izah olunurdusa, son illərdə bu proses daha çox geosiyasi gərginliklər, regional münaqişələr, iqlim dəyişiklikləri, əmək bazarındakı struktur dəyişiklikləri və yüksək ixtisaslı kadrların qlobal hərəkətliliyi ilə əlaqələndirilir. Beynəlxalq Miqrasiya Təşkilatının qiymətləndirmələrinə əsasən, hazırda dünyada 280 milyondan çox insan doğulduğu ölkədən kənarda yaşayır və bu göstərici son onilliklərdə davamlı artım nümayiş etdirir. Miqrasiya inkişaf etmiş ölkələrdə əmək çatışmazlığının qismən kompensasiya edilməsinə imkan versə də, miqrant qəbul edən cəmiyyətlərdə sosial inteqrasiya, mənzil təminatı, təhsil və səhiyyə xidmətlərinin əlçatanlığı kimi yeni problemlər yaradır. Digər tərəfdən, miqrant göndərən ölkələrdə gənc və ixtisaslı əmək resurslarının azalması iqtisadi inkişafın potensialını zəiflədə bilir [18].

Qlobal demoqrafik transformasiyanın ailə institutuna təsiri xüsusilə diqqət çəkən istiqamətlərdən biridir. Son onilliklərdə nikah yaşı yüksəlmiş, nikah bağlamadan birlikdə yaşama halları artmış, boşanma səviyyəsi yüksəlmiş və tək nəfərlik ev təsərrüfatlarının xüsusi çəkisi əhəmiyyətli dərəcədə genişlənmişdir. Bununla yanaşı, qadınların əmək bazarında fəallığının artması, gender bərabərliyinin güclənməsi və fərdi özünüreallaşdırma meyllərinin geniş yayılması ailənin ənənəvi funksiyalarını müəyyən qədər dəyişdirmişdir. Bu dəyişikliklər ailə institutunun zəifləməsi kimi deyil, onun yeni sosial-iqtisadi şəraitə uyğun transformasiyası kimi qiymətləndirilməlidir. Başqa sözlə, ailə modeli öz mahiyyətini qoruyub saxlasa da, onun formaları və funksional xüsusiyyətləri əvvəlki dövrlərlə müqayisədə daha çevik xarakter almışdır [27].

Rəqəmsallaşma və informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı da demoqrafik davranışın dəyişməsinə təsir göstərən yeni amillər sırasındadır. Uzaqdan işləmə imkanlarının genişlənməsi, rəqəmsal xidmətlərin əlçatanlığı və onlayn təhsil sistemlərinin inkişafı insanların yaşayış yeri seçimlərinə, əmək miqrasiyasına və ailə planlaşdırmasına yeni məzmun qazandırmışdır. Bununla yanaşı, sosial şəbəkələr və rəqəmsal kommunikasiya vasitələri ailə münasibətlərinin qurulması və saxlanılması prosesində də mühüm rol oynamağa başlamışdır. Lakin rəqəmsal transformasiya yalnız müsbət nəticələr doğurmur. Gənclər arasında iqtisadi qeyri-müəyyənlik hissinin artması, qeyri-sabit məşğulluq formalarının genişlənməsi və gələcək gəlirlərlə bağlı risklərin yüksəlməsi bir çox ölkələrdə ailə qurulmasının və övlad sahibi olma qərarının gecikdirilməsinə səbəb olur. Bu baxımdan rəqəmsallaşma demoqrafik proseslərə dolayı təsir göstərən yeni struktur amili kimi çıxış edir [25].

Son illərdə iqlim dəyişiklikləri də demoqrafik transformasiyanın mühüm determinantlarından birinə çevrilmişdir. Quraqlıqların, daşqınların, meşə yanğınlarının və digər ekstremal hava hadisələrinin intensivləşməsi insanların yaşayış yerlərini tərk etməsinə, daxili və beynəlxalq miqrasiyanın artmasına səbəb olur. Xüsusilə kənd təsərrüfatından asılı regionlarda iqlim riskləri

əhalinin məşğulluq imkanlarını məhdudlaşdıraraq kənd yerlərindən şəhərlərə köçü sürətləndirir. Beynəlxalq təşkilatların qiymətləndirmələrinə görə, iqlim dəyişiklikləri nəticəsində yaxın onilliklərdə milyonlarla insanın daxili miqrant statusu qazanacağı gözlənilir. Bu isə demoqrafik siyasətin yalnız sosial deyil, həm də ekoloji və iqtisadi təhlükəsizlik siyasəti ilə inteqrasiyasını zəruri edir [37].

Qlobal demoqrafik transformasiya göstərir ki, əhali prosesləri artıq ayrı-ayrı statistik göstəricilər deyil, dövlətlərin uzunmüddətli inkişaf strategiyasını müəyyən edən fundamental amillərdir. Doğum səviyyəsinin azalması, əhalinin yaşlanması, urbanizasiyanın sürətlənməsi, miqrasiya axınlarının intensivləşməsi, ailə institutunun transformasiyası və iqlim dəyişikliklərinin təsiri qarşılıqlı əlaqədə çıxış edərək yeni demoqrafik reallıq formalaşdırır. Bu reallıq dövlətlərdən yalnız demoqrafik göstəricilərin izlənilməsini deyil, həm də ailə siyasəti, əmək bazarı, təhsil, səhiyyə, mənzil təminatı və sosial müdafiə sistemləri arasında koordinasiyalı, uzunmüddətli və elmi əsaslandırılmış siyasət mexanizmlərinin tətbiqini tələb edir. Məhz belə yanaşma demoqrafik inkişafın iqtisadi dayanıqlılığa və sosial rifaha müsbət təsirini təmin edə bilər.

**Ailə institutunun transformasiyası və onu formalaşdıran əsas amillər**

Ailə institutu bütün tarixi inkişaf mərhələlərində cəmiyyətin ən sabit sosial institutlarından biri hesab olunsa da, onun təşkilati forması, funksiyaları və daxili münasibətləri heç vaxt dəyişməz olmamışdır. Əksinə, ailə cəmiyyətin iqtisadi, siyasi və mədəni inkişaf səviyyəsinə uyğun olaraq daim transformasiya edən sosial system kimi çıxış edir. Müasir dövrdə ailə institutunda baş verən dəyişikliklər əvvəlki əsrlərlə müqayisədə daha geniş miqyas almış və demoqrafik inkişafın əsas istiqamətlərindən birinə çevrilmişdir. Məhz buna görə son illərdə demoqrafiya, sosiologiya və iqtisadiyyat üzrə aparılan tədqiqatlarda əsas diqqət artıq ***“ailə necə dəyişir?”*** sualından daha çox ***“ailə niyə dəyişir?”*** sualının cavablandırılmasına yönəldilir. Bu yanaşma ailənin transformasiyasını təkcə sosial davranış dəyişikliyi kimi deyil, iqtisadi inkişaf, institusional dəyişikliklər və fərdi dəyərlərin yenilənməsi nəticəsində formalaşan kompleks proses kimi qiymətləndirməyə imkan verir [34].

Ənənəvi ailə modeli əsasən kollektiv məsuliyyət, erkən nikah, yüksək doğum səviyyəsi və əmək bölgüsünün aydın şəkildə müəyyənləşdirilməsi üzərində qurulurdu. Ailə yalnız sosial münasibətlər sistemi deyil, eyni zamanda iqtisadi fəaliyyət vahidi kimi çıxış edirdi. Kənd təsərrüfatının üstünlük təşkil etdiyi cəmiyyətlərdə çoxuşaqlı ailə iqtisadi üstünlük hesab olunur, uşaqlar gələcək əmək resursu kimi qiymətləndirilirdi. Sənayeləşmə, şəhərləşmə və bazar münasibətlərinin inkişafı isə bu modeli tədricən dəyişdirmişdir. İqtisadi funksiyaların əhəmiyyətli hissəsi ailədən bazar institutlarına keçmiş, təhsil, səhiyyə, sosial müdafiə və məşğulluq sistemlərinin inkişafı ailənin ənənəvi funksiyalarının bir qismini öz üzərinə götürmüşdür. Beləliklə, ailənin sosial mahiyyəti qorunub saxlanılsa da, onun iqtisadi və demoqrafik davranışı yeni inkişaf mərhələsinə daxil olmuşdur [25].

Müasir elmi ədəbiyyatda ailə institutunun transformasiyası daha çox İkinci Demoqrafik Keçid (Second Demographic Transition) nəzəriyyəsi ilə izah edilir. Bu yanaşmaya görə XX əsrin sonlarından etibarən inkişaf etmiş ölkələrdə ailə davranışının əsas determinantları iqtisadi zərurətdən daha çox fərdi seçimlər və şəxsi dəyərlər olmuşdur. Əgər birinci demoqrafik keçid ölüm və doğum göstəricilərinin azalması ilə xarakterizə olunurdusa, ikinci mərhələdə nikah davranışının dəyişməsi, doğumun gecikdirilməsi, nikahdankənar birlikdə yaşama hallarının artması, ailələrin kiçilməsi və fərdi həyat strategiyalarının güclənməsi əsas meylə çevrilmişdir. Bu dəyişikliklər ailə institutunun zəifləməsini deyil, onun postindustrial cəmiyyətin sosial-iqtisadi reallıqlarına uyğunlaşmasını ifadə edir [19].

Belə bir transformasiyanın mərkəzində fərdiləşmə prosesləri dayanır. Müasir cəmiyyətlərdə insanların həyat seçimləri əvvəlki dövrlərlə müqayisədə daha çox şəxsi maraqlar, peşəkar inkişaf, iqtisadi müstəqillik və özünüreallaşdırma məqsədləri əsasında formalaşır. Bu dəyişiklik nikahın və valideynliyin sosial zərurət kimi deyil, fərdi qərar kimi qəbul edilməsinə səbəb olur. Məhz buna görə son onilliklərdə ailə qurmaq yaşı yüksəlmiş, ilk övladın dünyaya gəlməsi gecikmiş və uşaqların sayı azalmışdır. Bu proses xüsusilə ali təhsilli və şəhər əhalisi arasında daha qabarıq müşahidə olunur. Beləliklə, ailə institutunun transformasiyası iqtisadi inkişafın deyil, iqtisadi inkişafla birlikdə dəyişən sosial dəyərlərin nəticəsi kimi meydana çıxır [3].

Nikah yaşının yüksəlməsi müasir ailə transformasiyasının ən xarakterik göstəricilərindən biridir. Əgər əvvəlki dövrlərdə erkən nikah iqtisadi və sosial sabitliyin əsas elementi hesab edilirdisə, hazırda gənclər üçün təhsil almaq, peşə əldə etmək, maliyyə müstəqilliyinə nail olmaq və mənzil təminatını həll etmək ailə qurmaqdan əvvəl həyata keçirilməsi vacib olan mərhələlər kimi qəbul edilir. Bu səbəbdən ilk nikah yaşı demək olar ki, bütün inkişaf etmiş ölkələrdə və bir çox inkişaf etməkdə olan dövlətlərdə yüksəlməkdə davam edir. Nikahın gecikməsi isə öz növbəsində reproduktiv dövrün qısalmasına və doğum göstəricilərinin azalmasına səbəb olur. Burada səbəb–nəticə əlaqəsi olduqca aydındır: nikah nə qədər gec baş verirsə, ailələrin planlaşdırdığı uşaq sayı da bir o qədər azalır [32].

*Doğum davranışının dəyişməsi ailə institutunun transformasiyasını şərtləndirən digər mühüm amildir.* Müasir ailələrdə əsas məqsəd çoxuşaqlılıq deyil, uşaqların keyfiyyətli təhsil alması, sağlam böyüməsi və yüksək insan kapitalına çevrilməsidir. Uşağa çəkilən xərclərin artması, təhsil müddətinin uzanması, səhiyyə xidmətlərinin bahalaşması və valideyn məsuliyyətinin genişlənməsi ailələrin reproduktiv qərarlarına birbaşa təsir göstərir. Başqa sözlə, ailələr artıq uşaqların sayından daha çox onların gələcək inkişaf imkanlarına üstünlük verirlər. Bu isə aşağı doğum səviyyəsinin yalnız iqtisadi problemlərin deyil, eyni zamanda insan kapitalına investisiyanın artmasının nəticəsi olduğunu göstərir [39].

*Təhsil səviyyəsinin yüksəlməsi də ailə institutunun transformasiyasında mühüm rol oynayır.* Xüsusilə qadınların ali təhsil imkanlarının genişlənməsi onların əmək bazarında iştirakını artırmaqla yanaşı, ailə qurmaq və valideyn olmaq qərarlarına da təsir göstərir. Təhsil səviyyəsi artdıqca nikahın və ilk doğumun gecikməsi ehtimalı yüksəlir, ailə planlaşdırılması daha rasional xarakter alır və uşaqların sayından daha çox onların inkişaf keyfiyyətinə diqqət yetirilir. Bu baxımdan təhsil demoqrafik davranışı dəyişdirən ən mühüm institusional mexanizmlərdən biri hesab edilir. Müasir ailə modeli məhz yüksək təhsil, iqtisadi fəallıq və fərdi seçim azadlığının qarşılıqlı təsiri nəticəsində formalaşır [33].

*Ailə institutunun transformasiyasını sürətləndirən mühüm amillərdən biri də urbanizasiyanın yeni mərhələyə keçməsidir.* Şəhərləşmə yalnız insanların yaşayış yerinin dəyişməsi deyil, həm də onların sosial davranışlarının, dəyərlərinin və həyat prioritetlərinin yenidən formalaşması deməkdir. Şəhər mühitində ailə üzvlərinin iqtisadi fəaliyyət imkanları genişlənsə də, yaşayış xərclərinin yüksəlməsi, mənzil bazarındakı qiymət artımı, nəqliyyat və sosial xidmətlərdən istifadə xərclərinin çoxalması ailə büdcəsinə əlavə yük yaradır. Belə bir şəraitdə gənc ailələr daha az sayda uşaq planlaşdırmağa və ailə qurmaq qərarını daha gec verməyə meyilli olurlar. Beləliklə, urbanizasiya iqtisadi inkişafı sürətləndirməklə yanaşı, ailə davranışını dəyişdirən struktur amillərdən birinə çevrilir. Bu baxımdan şəhərləşmə ilə aşağı doğum səviyyəsi arasında müşahidə olunan əlaqə təsadüfi deyil, sosial-iqtisadi transformasiyanın məntiqi nəticəsidir [29].

Hazırda mövcud olan iqtisadi qeyri-müəyyənlik ailə institutunun transformasiyasını izah edən ən mühüm amillərdən biri hesab edilir. Qlobal maliyyə böhranları, inflyasiya təzyiqləri, əmək bazarında qeyri-sabit məşğulluq formalarının genişlənməsi və gəlirlərin proqnozlaşdırılmasının çətinləşməsi ailələrin uzunmüddətli planlaşdırma imkanlarını məhdudlaşdırır. Gənclər ailə qurmaq və valideyn olmaq kimi mühüm qərarları yalnız sosial baxımdan deyil, həm də iqtisadi təhlükəsizlik prizmasından qiymətləndirirlər. Sabit gəlirin olmaması, əmək müqavilələrinin qısamüddətli xarakter daşıması və gələcək maliyyə risklərinin yüksək qiymətləndirilməsi nikahın gecikməsinə və reproduktiv davranışın dəyişməsinə səbəb olur. Bir çox ölkələrdə aparılmış empirik tədqiqatlar göstərir ki, iqtisadi sabitlik səviyyəsi yüksəldikcə ailə qurmaq meyli də artır, qeyri-müəyyənlik isə əksinə, doğum göstəricilərini aşağı salır [25].

İqtisadi qeyri-müəyyənliklə sıx bağlı olan digər problem mənzil təminatıdır. Son onilliklərdə bir çox ölkələrdə daşınmaz əmlak bazarında qiymətlərin sürətli artması gənc ailələrin müstəqil yaşayış imkanlarını məhdudlaşdırmışdır. Mənzil əldə etmək üçün tələb olunan ilkin kapitalın böyüklüyü, uzunmüddətli ipoteka öhdəlikləri və yüksək kredit faizləri ailə qurmaq qərarına birbaşa təsir göstərir. Xüsusilə iri şəhərlərdə mənzil problemi yalnız sosial məsələ deyil, həm də demoqrafik davranışın əsas determinantlarından birinə çevrilmişdir. Bu səbəbdən son illərdə bir sıra Avropa ölkələri gənc ailələr üçün güzəştli ipoteka proqramları, kirayə mənzil subsidiyaları və uşaq sahibi olan ailələrə mənzil dəstəyi kimi mexanizmləri demoqrafik siyasətin tərkib hissəsi kimi tətbiq etməyə başlamışdır [21].

Müasir ailə institutunun transformasiyasını yalnız iqtisadi amillərlə izah etmək kifayət etmir. Sosial dəyərlərin dəyişməsi də bu prosesdə mühüm rol oynayır. Əvvəlki nəsillər üçün ailə qurmaq sosial norma və həyatın məcburi mərhələsi hesab edilirdisə, müasir cəmiyyətlərdə bu qərar daha çox fərdi seçim kimi qəbul edilir. İnsanların şəxsi inkişaf, peşəkar karyera, beynəlxalq mobillik və həyat keyfiyyəti ilə bağlı gözləntiləri genişləndikcə ailə qurmaq qərarı da daha rasional və planlı xarakter alır. Bu, ailə institutunun zəifləməsi deyil, onun funksional mahiyyətinin dəyişməsi kimi qiymətləndirilməlidir. Ailə artıq yalnız sosial öhdəlik deyil, qarşılıqlı razılıq, emosional yaxınlıq və ortaq həyat strategiyası üzərində qurulan sosial birlik formasına çevrilir [13].

Mövcud ailə modelində qərar qəbuletmə mexanizmlərinin dəyişməsi də transformasiyanın mühüm göstəricilərindəndir. Ənənəvi ailə modelində qərarlar əsasən kollektiv maraqlar əsasında qəbul edilirdisə, hazırda fərdi seçimlərin rolu əhəmiyyətli dərəcədə artmışdır. Həyat yoldaşının seçilməsi, nikahın vaxtı, övladların sayı, karyera və ailə arasında balansın qurulması kimi məsələlərdə fərdi seçimlər daha üstün mövqe tutur. Bu dəyişiklik ailədaxili münasibətlərin daha demokratik xarakter almasına şərait yaratsa da, eyni zamanda ailə institutunun davamlılığı baxımından yeni çağırışlar yaradır. Fərdi gözləntilərlə ailə məsuliyyətləri arasında tarazlığın qorunması müasir ailələrin qarşılaşdığı əsas problemlərdən biri hesab olunur [3].

Bütün qeyd olunan amillər göstərir ki, ailə institutunun transformasiyası hər hansı bir amilin nəticəsi deyil. Əksinə, iqtisadi inkişaf, urbanizasiya, təhsil səviyyəsinin yüksəlməsi, mənzil bazarındakı dəyişikliklər, əmək münasibətlərinin çevikləşməsi və fərdi dəyərlərin yenilənməsi qarşılıqlı təsir göstərərək ailə davranışını yeni istiqamətdə formalaşdırır. Bu proseslərin hər biri ayrıca əhəmiyyət daşısa da, onların sinerji effekti ailə institutunun mahiyyətində daha dərin dəyişikliklər yaradır. Məhz buna görə müasir demoqrafik siyasət yalnız doğum səviyyəsinin artırılmasına yönəlməməli, eyni zamanda gənclərin iqtisadi müstəqilliyi, mənzil təminatı, məşğulluq imkanları və ailə həyatının institusional dəstəyi kimi məsələləri də kompleks şəkildə əhatə etməlidir.

*"Ailə niyə dəyişir?" sualının cavabı yalnız bir səbəblə izah oluna bilməz. Müasir ailə modeli qloballaşma, iqtisadi inkişaf, urbanizasiya, təhsil, fərdiləşmə və institusional dəyişikliklərin eyni vaxtda təsiri altında formalaşan çoxölçülü sosial sistemdir. Ailənin transformasiyası ənənəvi modelin tamamilə sıradan çıxması deyil, onun yeni iqtisadi və sosial reallıqlara uyğunlaşması prosesidir. Bu baxımdan ailə institutunun gələcək inkişafı da məhz həmin amillərin necə dəyişəcəyindən və dövlətlərin bu dəyişikliklərə hansı siyasət alətləri ilə cavab verəcəyindən asılı olacaq.*

Demoqrafik dəyişikliklər sosial-iqtisadi inkişafın xarakterini müəyyənləşdirməklə yanaşı, dövlət siyasətinin formalaşmasına da mühüm təsir göstərir. Müasir dövrdə demoqrafik dəyişikliklər yalnız əhali statistikasında baş verən dəyişmələr kimi deyil, iqtisadi sistemin bütün komponentlərinə təsir göstərən uzunmüddətli struktur proses kimi qiymətləndirilir. Əhalinin yaş strukturunun dəyişməsi, doğum səviyyəsinin azalması, ömür uzunluğunun artması və miqrasiya axınlarının intensivləşməsi iqtisadiyyatın istehsal, istehlak, investisiya və dövlət maliyyəsi kimi əsas sahələrinə birbaşa təsir göstərir. Bu baxımdan demoqrafik inkişaf iqtisadi artımın nəticəsi olmaqla yanaşı, eyni zamanda onun formalaşmasını müəyyən edən fundamental amillərdən biri hesab edilir. Son illərdə beynəlxalq təşkilatlar demoqrafik dinamikanı makroiqtisadi sabitliyin və fiskal dayanıqlılığın əsas determinantlarından biri kimi qiymətləndirirlər [17]. *Demoqrafik dəyişikliklərin dövlətin sosial-iqtisadi inkişaf siyasətinə olan təsirlərini aşağıdakı istiqamətlər üzrə səciyyələndirmək daha məqsədəuyğun olar:*

- Demoqrafik dəyişikliklərin iqtisadiyyata təsir mexanizmini anlamaq üçün ilk növbədə əmək bazarında baş verən struktur dəyişikliklərə diqqət yetirmək lazımdır. İqtisadiyyatın istehsal potensialı yalnız kapital qoyuluşlarından və texnoloji tərəqqidən deyil, həm də əmək resurslarının həcmindən və keyfiyyətindən asılıdır. Əmək qabiliyyətli əhalinin xüsusi çəkisinin azalması işçi qüvvəsinin təklifini məhdudlaşdırır, bəzi sahələrdə ixtisaslı kadr çatışmazlığını dərinləşdirir və müəssisələrin istehsal xərclərini artırır. Bu proses xüsusilə əhalinin yaşlanmasının sürətləndiyi ölkələrdə daha qabarıq müşahidə olunur. Nəticədə əmək bazarında yeni tarazlıq formalaşır: bir tərəfdən işçi qüvvəsinə tələbat artır, digər tərəfdən isə əmək resurslarının sayı azalır. Bu ziddiyyət dövlətləri əmək məhsuldarlığını yüksəltməyə, rəqəmsallaşmanı genişləndirməyə və yaşlı əhalinin iqtisadi fəallığını artırmağa yönəlmiş siyasətlər həyata keçirməyə sövq edir [15].
- Əmək bazarında baş verən bu dəyişikliklər insan kapitalının formalaşmasına da əhəmiyyətli təsir göstərir. Müasir iqtisadiyyatın əsas üstünlüyü artıq ucuz və çoxsaylı əmək resursları deyil, yüksək ixtisaslı və innovativ düşüncə qabiliyyətinə malik insan kapitalıdır. Doğum səviyyəsinin azalması qısamüddətli perspektivdə təhsil və səhiyyə sistemlərinə düşən yükü müəyyən qədər azalda bilər. Lakin uzunmüddətli dövrdə əmək bazarına daxil olan gənclərin sayının azalması insan kapitalının yenilənmə sürətini zəiflədir və innovasiya potensialını məhdudlaşdırır. Bu səbəbdən inkişaf etmiş ölkələrdə demoqrafik siyasət yalnız doğum göstəricilərinin artırılmasına deyil, eyni zamanda hər bir fərdin təhsil səviyyəsinin yüksəldilməsinə, peşə bacarıqlarının inkişafına və ömürboyu təhsil mexanizmlərinin genişləndirilməsinə yönəldilir. İnsan kapitalına investisiyalar demoqrafik itkilərin iqtisadi təsirlərini kompensasiya edən əsas vasitələrdən biri kimi qiymətləndirilir [39].

- Demoqrafik transformasiya iqtisadi artımın xarakterini də dəyişdirir. Gənc və sürətlə artan əhali müəyyən dövrdə iqtisadi artım üçün əlavə əmək resursları və geniş istehlak bazarı formalaşdıraraq demoqrafik dividend yarada bilər. Lakin bu potensial yalnız məşğulluq imkanlarının genişləndirilməsi, keyfiyyətli təhsil və məhsuldar iqtisadi fəaliyyətlə dəstəkləndiyi halda reallaşır. Əks halda, yüksək işsizlik, aşağı məhsuldarlıq və insan kapitalının səmərəsiz istifadəsi demoqrafik üstünlüyü iqtisadi yükə çevirə bilər. Digər tərəfdən, yaşlanan cəmiyyətlərdə demoqrafik dividend mərhələsi başa çatır və iqtisadi artımın əsas mənbəyi əmək resurslarının sayından daha çox məhsuldarlığın yüksəldilməsi olur. Bu baxımdan demoqrafik dəyişikliklərin iqtisadi nəticələri ölkənin institusional inkişaf səviyyəsi ilə sıx bağlıdır [31].
- İstehlak bazarı da demoqrafik transformasiyanın birbaşa təsirinə məruz qalır. Əhalinin yaş strukturu dəyişdikcə istehlakın həcmi ilə yanaşı onun strukturu da dəyişir. Gənc əhalinin üstünlük təşkil etdiyi cəmiyyətlərdə təhsil, mənzil, uşaq məhsulları və rəqəmsal xidmətlərə tələbat daha yüksək olur. Əksinə, yaşlı əhalinin payının artdığı ölkələrdə səhiyyə, uzunmüddətli sosial xidmətlər, dərman preparatları və yaşlılara yönəlmiş xidmət sektorunun çəkisi artır. Bu dəyişikliklər biznes mühitinin, investisiya istiqamətlərinin və dövlətin iqtisadi prioritetlərinin yenidən müəyyənləşdirilməsini zəruri edir. Başqa sözlə, demoqrafik dəyişikliklər istehlak bazarının yalnız həcmini deyil, həm də funksional strukturunu transformasiya edir [25].
- Regional inkişaf baxımından da demoqrafik proseslər mühüm nəticələr yaradır. Daxili miqrasiya və urbanizasiyanın sürətlənməsi iri şəhərlərdə iqtisadi fəallığın cəmləşməsinə, kənd və ucqar ərazilərdə isə əhalinin azalmasına səbəb olur. Bu isə əmək resurslarının, investisiyaların və sosial infrastrukturun ərazi üzrə qeyri-bərabər bölgüsünü dərinləşdirir. Nəticədə regional inkişaf siyasəti artıq yalnız iqtisadi təşviqlərlə deyil, həm də demoqrafik tarazlığın qorunması məqsədilə həyata keçirilməlidir. Əks halda, bəzi regionlarda əhalinin sürətlə azalması həmin ərazilərin iqtisadi potensialını zəiflədə, infrastrukturun saxlanılması xərclərini artıra və regional bərabərsizliyi dərinləşdirə bilər [39].
- Aparılan araşdırma göstərir ki, demoqrafik dəyişikliklər iqtisadiyyatın yalnız əmək bazarına deyil, insan kapitalının formalaşmasına, istehlak bazarına, regional inkişaf modelinə və uzunmüddətli iqtisadi artım potensialına kompleks təsir göstərir. Bu təsirlər bir-biri ilə qarşılıqlı əlaqədə olduğundan onların idarə olunması yalnız demoqrafik siyasətlə məhdudlaşa bilməz. Əmək bazarı, təhsil, regional inkişaf və innovasiya siyasətləri vahid strateji çərçivədə əlaqələndirildiyi halda demoqrafik dəyişikliklərin yaratdığı risklər azaldıla və onların potensial üstünlükləri iqtisadi inkişafın yeni mənbəyinə çevrilə bilər.
- Demoqrafik dəyişikliklərin dövlət siyasəti baxımından ən mühüm nəticələrindən biri sosial müdafiə sisteminin maliyyə dayanıqlılığı ilə bağlıdır. Əhalinin yaşlanması və doğum səviyyəsinin azalması əmək qabiliyyətli əhali ilə pensiya yaşına çatmış əhali arasında nisbətin dəyişməsinə səbəb olur. Nəticədə sosial sığorta sisteminə töhfə verənlərin sayı azalarkən, pensiya və digər sosial ödənişlərdən faydalananların sayı artır. Bu vəziyyət sosial müdafiə fondlarının maliyyə imkanlarını məhdudlaşdırır və dövlət büdcəsinin üzərinə əlavə fiskal yük qoyur. Xüsusilə pay-as-you-go prinsipi (istifadə etdikcə ödə) ilə fəaliyyət göstərən pensiya sistemlərində demoqrafik tarazlığın pozulması uzunmüddətli maliyyə sabitliyi üçün ciddi risk hesab edilir [22]. Pensiya yükünün artması yalnız sosial müdafiə sisteminin deyil, bütövlükdə dövlət maliyyəsinin strukturunu dəyişdirir. Əmək qabiliyyətli əhalinin sayının azalması vergi daxilolmalarının artım tempini zəiflətdiyi halda, yaşlı əhalinin artması pensiya və sosial yardım

xərclərinin davamlı şəkildə yüksəlməsinə səbəb olur. Bu vəziyyət büdcə resurslarının yenidən bölüşdürülməsini zəruri edir. Dövlətlər ya sosial ödənişlərə ayrılan vəsaiti artırmalı, ya da vergi yükünü yüksəltməli olurlar. Hər iki halda iqtisadi artım və investisiya mühiti müəyyən təzyiqlərlə üzləşə bilər. Buna görə də bir çox inkişaf etmiş ölkələr pensiya yaşının mərhələli artırılması, könüllü yığım komponentlərinin genişləndirilməsi və aktiv yaşlanma siyasətinin təşviqi kimi islahatlar həyata keçirirlər [38].

- Səhiyyə sistemi də demoqrafik transformasiyanın təsirinə məruz qalan əsas sahələrdəndir. Əhalinin yaşlanması ilə birlikdə xroniki xəstəliklərin yayılması artır, uzunmüddətli tibbi xidmətlərə və reabilitasiya proqramlarına ehtiyac genişlənir. Bu isə səhiyyə xərclərinin strukturunu dəyişdirir və dövlət büdcəsində səhiyyəyə ayrılan vəsaitin artırılmasını tələb edir. Eyni zamanda yaşlı əhali üçün profilaktik xidmətlərin, evdə tibbi xidmət modellərinin və rəqəmsal səhiyyə texnologiyalarının inkişafı strateji əhəmiyyət kəsb edir. Belə şəraitdə səhiyyə siyasətinin əsas məqsədi yalnız ömür uzunluğunu artırmaq deyil, həm də sağlam ömür müddətini uzatmaq olmalıdır. Bu yanaşma uzunmüddətli dövrdə həm sosial rifahın yüksəldilməsinə, həm də səhiyyə xərclərinin optimallaşdırılmasına imkan yaradır [41].
- Demoqrafik dəyişikliklər təhsil sisteminə də ikitərəfli təsir göstərir. Bir tərəfdən doğum səviyyəsinin azalması məktəbyaşlı uşaqların sayının azalmasına gətirib çıxarır ki, bu da bəzi regionlarda təhsil müəssisələrinin optimallaşdırılmasını zəruri edir. Digər tərəfdən, bilik iqtisadiyyatının inkişafı insan kapitalının keyfiyyətini əsas rəqabət üstünlüyünə çevirdiyindən təhsil sisteminin məzmununa və keyfiyyətinə tələblər artır. Bu şəraitdə dövlət siyasətinin prioriteti yalnız şagird sayını artırmaq deyil, ömürboyu təhsil, peşə hazırlığı, rəqəmsal bacarıqlar və innovasiya potensialının inkişafı olmalıdır. Beləliklə, demoqrafik dəyişikliklər təhsil siyasətini kəmiyyət yönümlü yanaşmadan keyfiyyət yönümlü modelə keçməyə sövq edir [33].
- Fiskal dayanıqlılıq baxımından demoqrafik transformasiya dövlət qarşısında uzunmüddətli planlaşdırma zərurəti yaradır. Əgər əmək qabiliyyətli əhalinin xüsusi çəkisi azalırsa, gələcəkdə vergi bazasının genişlənməsi imkanları da məhdudlaşır. Eyni zamanda pensiya, səhiyyə və sosial müdafiə xərclərinin artması büdcə balansına mənfi təsir göstərir. Bu səbəbdən beynəlxalq maliyyə institutları demoqrafik risklərin fiskal proqnozlaşdırma sistemlərinə inteqrasiyasını tövsiyə edirlər. Demoqrafik göstəricilər artıq yalnız statistika deyil, dövlət büdcəsinin orta və uzunmüddətli planlaşdırılmasının əsas parametrlərindən biri kimi qəbul edilir [16].
- Regional inkişaf siyasəti də demoqrafik dəyişikliklərdən birbaşa asılıdır. Daxili miqrasiya nəticəsində iri şəhərlərdə əhali sıxlığının artması, kənd və ucqar ərazilərdə isə əhalinin azalması infrastrukturun, sosial xidmətlərin və iqtisadi fəaliyyətin ərazi üzrə qeyri-bərabər bölgüsünə səbəb olur. Bu proses bəzi regionlarda məktəblərin, səhiyyə müəssisələrinin və digər sosial obyektlərin istifadəsinin azalmasına, digər regionlarda isə həmin xidmətlərə həddindən artıq tələbat yaranmasına gətirib çıxarır. Buna görə regional inkişaf siyasətində demoqrafik proqnozlar əsas planlaşdırma alətlərindən biri kimi istifadə edilməlidir. Əhalinin ərazi üzrə balanslı yerləşməsi iqtisadi səmərəliliklə yanaşı, sosial ədalətin və milli birliyin qorunması baxımından da mühüm əhəmiyyət daşıyır [28].
- Demoqrafik transformasiyanın milli təhlükəsizliklə əlaqəsi son illərdə daha çox diqqət mərkəzinə gəlmişdir. Əmək resurslarının azalması müdafiə sənayesi, strateji istehsal sahələri və dövlət idarəçiliyi üçün ixtisaslı kadr təminatını çətinləşdirə bilər. Eyni zamanda regionlar

üzrə əhali sayındakı ciddi fərqlər sərhəd ərazilərinin sosial-iqtisadi inkişafına və məskunlaşma siyasətinə təsir göstərir. Bu baxımdan demoqrafik siyasət artıq yalnız sosial siyasətin deyil, milli təhlükəsizlik strategiyasının da mühüm komponenti kimi qiymətləndirilir. Əhalinin keyfiyyət göstəricilərinin yüksəldilməsi, insan kapitalının inkişafı və regionların demoqrafik dayanıqlığının təmin edilməsi uzunmüddətli milli təhlükəsizliyin əsas şərtlərindən biri hesab olunur [31].

Aparılan təhlil göstərir ki, demoqrafik dəyişikliklərin dövlət siyasətinə təsiri çoxşaxəli və uzunmüddətlidir. Əhalinin yaşlanması və doğum səviyyəsinin azalması sosial müdafiə sistemi, pensiya təminatı, səhiyyə, təhsil və dövlət maliyyəsi üçün yeni çağırışlar yaradır. Bu problemlərin ayrı-ayrılıqda həlli mümkün olmadığından demoqrafik siyasət fiskal, sosial və iqtisadi siyasətlə inteqrasiya olunmalıdır. Uzunmüddətli perspektivdə yalnız insan kapitalına investisiyaların artırılması, aktiv yaşlanma siyasətinin təşviqi, məhsuldarlığın yüksəldilməsi və fiskal dayanıqlılığın gücləndirilməsi demoqrafik transformasiyanın mənfi təsirlərini zəiflədə bilər. Məhz buna görə müasir dövlətlər üçün əsas məsələ demoqrafik dəyişikliklərin qarşısını almaq deyil, onların yaratdığı yeni reallıqlara çevik və elmi əsaslandırılmış siyasət mexanizmləri ilə uyğunlaşmaqdır.

**Ölkələr üzrə ailə siyasəti və demoqrafik göstəricilərin qarşılıqlı əlaqəsi: statistik-institusional təhlil**

Ailə və demoqrafik siyasətin effektivliyini qiymətləndirərkən yalnız institusional çərçivəni təsvir etmək kifayət deyil; bu siyasətlərin real nəticələrini əks etdirən statistik göstəricilərlə əlaqələndirmək zəruridir. Doğum və ölüm əmsalı, təbii artım və əhalinin orta yaşı kimi kəmiyyət göstəriciləri hər bir ölkənin tətbiq etdiyi siyasət modelinin faktiki səmərəliliyini ölçmək üçün əsas empirik baza yaradır. Bu baxımdan mövcud istiqamətdə müəyyən irəliləyişlərə nail olmuş seçilmiş ölkələr üzrə təhlillərin aparılması daha məqsədəuyğundur (cədvəl 1).

*Fransa: institusional sabitliyin statistik əksi.* Fransanın uşaq müavinətləri, vergi güzəştləri, geniş məktəbəqədər təhsil şəbəkəsi və çevik valideynlik məzuniyyəti kimi çoxşaxəli mexanizmlərə əsaslanan ailə siyasəti [23] statistik göstəricilərdə də müəyyən qədər öz əksini tapır. 2022-ci ildə 1,8 səviyyəsində olan ümumi doğum əmsalı 2024-cü ildə 1,6-ya enmişdir, bu tənəzzül Avropa İttifaqının ümumi tendensiyası ilə üst-üstə düşür; belə ki, İttifaq üzrə orta göstərici 2022-ci ildə 1,46-dan 2024-cü ildə 1,34-ə qədər azalmışdır [12]. Bununla belə, Fransa hələ də İttifaq daxilində Bolqarıstandan sonra ikinci ən yüksək göstəriciyə malikdir [11]. Diqqətəlayiq haldır ki, təbii artım göstəricisi (2022-ci ildə +0,5‰-dən 2025-ci ildə təxminən sıfıra doğru) tənəzzül nümayiş etdirsə də, mənfi diapazona hələ keçməmişdir - bu, institusional dəstək modelinin tam effektsiz olmadığını, sadəcə tənəzzülün sürətini yavaşlatdığını göstərir. Demək olar ki, Fransa nümunəsi maliyyə dəstəyinin deyil, ailə-iş balansını təmin edən institusional mühitin nisbi effektivliyini təsdiqləyən statistik dəlil rolunu oynayır.

*İsveç: gender bərabərliyi modelinin statistik paradoksu.* İsveçin gender bərabərliyi və sosial rifah prinsiplərinə əsaslanan modeli [23] statistikada maraqlı bir ziddiyyət yaradır: ölkənin doğum əmsalı 2022–2025 aralığında 1,5-dən 1,4-ə enməsinə baxmayaraq, 2025-ci ildə təbii artım müsbət (+2,6‰) olaraq qalmışdır [6]. Bu paradoksun izahı sadədir - İsveçin nisbətən aşağı ölüm əmsalı (9,1-9,3‰) və miqrasiya axınının formalaşdırdığı gənc əhali strukturu doğum əmsalındakı tənəzzülü kompensasiya edir. Bu, gender bərabərliyi ilə doğum səviyyəsi arasında mütləq mənfi əlaqənin olmadığına dair əvvəlki iddianı [23] dolayı yolla təsdiqləyir, lakin əlavə bir nüans aşkar edir: İsveç

modelinin dayanıqlılığı təkcə ailə siyasətindən deyil, həm də açıq miqrasiya siyasətindən asılıdır. Başqa sözlə, statistik göstəricilər göstərir ki, İsveçin nisbi demoqrafik sabitliyi ikili mexanizmin: daxili ailə siyasəti və xarici miqrasiya axınının birgə nəticəsidir.

*Yaponiya: fiskal təşviqlərin struktur məhdudiyyəti.* Yaponiyanın mənzil xərcləri, uzun iş saatları və ənənəvi əmək münasibətləri ilə bağlı struktur problemləri [4] statistik göstəricilərdə ən kəskin şəkildə əks olunur. Ölkənin doğum əmsalı 2022-ci ildə 1,3-dən 2024-cü ildə 1,2-yə enərkən, ölüm əmsalı 12‰ səviyyəsində sabit qalmış, nəticədə təbii artım ardıcıl olaraq təxminən 6,5‰ civarında dərin mənfi diapazonda qərarlaşmışdır [23]. Paralel olaraq, əhalinin orta yaş dövrü 2022-ci ildə 49,4-dən 2025-ci ilə doğru 50,1-ə yüksələrək dünyada ən yüksək göstəricilərdən birinə çevrilmişdir [5]. Bu üçlük - aşağı doğum, sabit yüksək ölüm və artan orta yaş Yaponiya nümunəsinin niyə "geri dönməz demoqrafik tələ" kimi xarakterizə olunduğunu izah edir: maliyyə təşviqləri mövcud olsa da, iş mədəniyyəti və sosial institutların paralel transformasiyası olmadan bu tədbirlər əhali strukturunun artıq formalaşmış inersiyasını dəyişməkdə acizdir.

*Cənubi Koreya: nikah dinamikasının gizli rolu.* Cənubi Koreyanın demoqrafik siyasətə ayırdığı yüksək maliyyə vəsaitinə baxmayaraq ümumi doğum əmsalının dünyada ən aşağı səviyyələrdən biri olması [25] statistik məlumatlarla təsdiqlənir, lakin 2023-2025-ci illər arasında müşahidə olunan qismən "U-dönüşü" (0,72 → 0,75 → 0,80) əlavə bir izaha ehtiyac yaradır. Bu artımın əsas hərəkətverici qüvvəsi fiskal təşviqlər deyil, nikahların sayının kəskin çoxalmasıdır: 2024-cü ildə 14,8%, 2025-ci ildə isə əlavə 8,1% artım qeydə alınmışdır [20]. Nikah və doğum arasında 1-2 illik gecikmə ilə güclü korrelyasiyanın mövcudluğu [7] göstərir ki, Cənubi Koreya kimi konfutsiçi mədəni ənənəyə malik cəmiyyətlərdə nikah statistikası doğum davranışının ən etibarlı erkən indikatorudur. Bununla belə, əhalinin orta yaşının sürətlə artması (2022-ci ildə 44,3-dən 2025-ci ilə 46,1-ə) və ölüm əmsalının tədricən yüksəlməsi (7,3‰-dən 7,7‰-ə) göstərir ki, bu qismən bərpa hələlik təbii artımı müsbətə çevirməyə (−2,7‰) yetərli deyil. Bu nəticə mövcud tezisi [25] dəqiqləşdirir: demoqrafik davranış təkcə iqtisadi stimullarla deyil, həm də sosial institutların (nikah, ailə formalaşdırma modelləri) dinamikası ilə müəyyən olunur.

*Macarıstan: fiskal pronatalizmin dayanıqsızlığı.* Macarıstanın çoxuşaqlı ailələr üçün vergi güzəştləri, güzəştli ipoteka və ailə avtomobili proqramları kimi aqressiv fiskal təşviqləri [8] ilk baxışdan doğum səviyyəsinin sabitləşməsinə kömək etmiş görünsə də (TFR 2022-ci ildə 1,5-dən 2023-cü ildə 1,6-ya), 2024-cü ildə baş vermiş kəskin geriləmə (1,6-dan 1,4-ə) bu "uğurun" qısamüddətli və dayanıqsız xarakter daşıdığını aydın göstərir [14]. Bu tənəzzül təsadüfi deyil: Macarıstan həm də beş ölkə arasında ən yüksək ölüm əmsalına (13-13,4‰) və ən dərin mənfi təbii artıma (−4,5-dən −5,2‰-ə qədər) malikdir [26]. Bu statistik mənzərə əvvəlki qənaəti [8] gücləndirir - fiskal təşviqlər mühüm alət olsa da, institusional islahatlarla (səhiyyə sisteminin, əmək bazarının və mənzil siyasətinin) tamamlanmadıqda onların təsiri məhdud və müvəqqəti xarakter daşıyır.

Qeyd edilən ölkələrin demoqrafik göstəricilərinin təhlili üç mühüm nəticəyə gətirib çıxarır: Birincisi, statistik məlumatlar təsdiqləyir ki, demoqrafik siyasətdə "universal model" iddiası [34] əsassız deyil; eyni növ alət (fiskal təşviq) Macarıstanda müvəqqəti, Fransada isə nisbətən davamlı nəticə vermişdir, bu fərq isə institusional kontekstin roluna işarə edir. İkincisi, Cənubi Koreya və İsveç nümunələri göstərir ki, təbii artım göstəricisi artıq təkcə TFR-in deyil, həm də əhali strukturunun (orta yaş, ölüm əmsalı) və xarici amillərin (miqrasiya, nikah dinamikası) birgə funksiyasıdır - bu da müasir demoqrafik siyasətin yalnız doğum səviyyəsinə deyil, kompleks amillər toplusuna yönəlməli olduğu tezisi statistik cəhətdən əsaslandırır. Üçüncüsü, Yaponiya və Macarıstan

nümunələri xəbərdarlıq xarakteri daşıyır: demoqrafik tənəzzülün müəyyən həddən sonra (yüksək orta yaş, dərin mənfi təbii artım) sırf siyasi alətlərlə geri qaytarılması getdikcə çətinləşir, bu da vaxtında və kompleks müdaxilənin zəruriliyini gücləndirir [28].

Cədvəl 1.

**Fransa, İsveç, Yaponiya, Cənubi Koreya və Macarıstanın əsas demoqrafik göstəriciləri**

| Ölkə | Göstərici | 2022 | 2023 | 2024 | 2025 |
|---|---|---|---|---|---|
| **Fransa** | Əhali (milyon) | 67,8 | 68,2 | 68,4 | 68,6 |
| | Doğum əmsalı (TFR) | 1,8 | 1,7 | 1,6 | 1,6 |
| | Ölüm əmsalı (‰) | 9,7 | 9,7 | 9,6 | 9,6 |
| | Təbii artım (‰) | +0,5 | +0,3 | +0,2 | +0,2 |
| | Orta yaş (il) | 42,0 | 42,3 | 42,5 | 42,7 |
| **İsveç** | Əhali (milyon) | 10,5 | 10,5 | 10,5 | 10,6 |
| | Doğum əmsalı (TFR) | 1,5 | 1,5 | 1,4 | 1,4 |
| | Ölüm əmsalı (‰) | 9,3 | 9,2 | 9,1 | 9,1 |
| | Təbii artım (‰) | +0,2 | +0,3 | +0,4 | +2,6 |
| | Orta yaş (il) | 40,5 | 40,7 | 40,8 | 41,0 |
| **Yaponiya** | Əhali (milyon) | 124,9 | 124,4 | 123,8 | 123,3 |
| | Doğum əmsalı (TFR) | 1,3 | 1,2 | 1,2 | 1,2 |
| | Ölüm əmsalı (‰) | 12,0 | 12,3 | 12,2 | 12,2 |
| | Təbii artım (‰) | −6,2 | −6,7 | −6,5 | −6,5 |
| | Orta yaş (il) | 49,4 | 49,7 | 49,9 | 50,1 |
| **Cənubi Koreya** | Əhali (milyon) | 51,6 | 51,7 | 51,8 | 51,8 |
| | Doğum əmsalı (TFR) | 0,8 | 0,7 | 0,8 | 0,8 |
| | Ölüm əmsalı (‰) | 7,3 | 7,5 | 7,6 | 7,7 |
| | Təbii artım (‰) | −1,9 | −2,4 | −2,9 | −2,7 |
| | Orta yaş (il) | 44,3 | 44,9 | 45,5 | 46,1 |
| **Macarıstan** | Əhali (milyon) | 9,6 | 9,6 | 9,6 | 9,6 |
| | Doğum əmsalı (TFR) | 1,5 | 1,6 | 1,4 | 1,4 |
| | Ölüm əmsalı (‰) | 13,4 | 13,1 | 13,0 | 13 |
| | Təbii artım (‰) | −4,5 | −3,9 | −5,2 | −5 |
| | Orta yaş (il) | 43,4 | 43,6 | 43,8 | 44,0 |

**Mənbə**: Cədvəl [4; 5; 6; 8; 11; 12; 14; 20; 23; 24; 26; 34] mənbələri əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Qeyd etmək lazımıdır ki, araşdırmada TFR (Total Fertility Rate) - ümumi doğum əmsalı: bir qadına düşən orta uşaq sayı və ‰ Promille isə hər 1000 nəfərə düşən saydır (ölüm əmsalı və təbii artım üçün istifadə olunur).

## Azərbaycanın demoqrafik inkişafının və ailə institutunun transformasiyasının müasir vəziyyəti

Azərbaycanın demoqrafik inkişafının müasir mənzərəsində və transformasiya meyllərində dəyişiklər baş verməkdədir. Azərbaycan son otuz il ərzində demoqrafik inkişaf baxımından mühüm struktur dəyişiklikləri yaşayan ölkələr sırasındadır. Müstəqilliyin ilk illərində iqtisadi və sosial transformasiya, daxili və xarici miqrasiya prosesləri, regional münaqişələrin təsiri və bazar iqtisadiyyatına keçid demoqrafik göstəricilərə ciddi təsir göstərmişdir. Sonrakı mərhələdə makroiqtisadi sabitliyin möhkəmlənməsi, sosial proqramların genişlənməsi və səhiyyə sisteminin inkişafı demoqrafik vəziyyətin müəyyən qədər sabitləşməsinə şərait yaratmışdır. Bununla belə, son illərdə müşahidə olunan doğum səviyyəsinin azalması, əhalinin yaş strukturunda dəyişikliklər və ailə davranışındakı transformasiya göstərir ki, Azərbaycan artıq qlobal demoqrafik keçid prosesinin yeni

mərhələsinə daxil olmuşdur. Bu mərhələ əvvəlki dövrlərdə müşahidə olunan yüksək təbii artım modelindən daha aşağı artım tempi və dəyişən ailə davranışı ilə fərqlənir [28].

Azərbaycanın demoqrafik inkişafının qiymətləndirilməsi göstərir ki, əhali sayının artımı davam etsə də, bu artımın mənbələri və intensivliyi əvvəlki dövrlərlə müqayisədə dəyişmişdir. Rəsmi mənbələrə əsasən, son illərdə doğulanların sayında azalma meyli müşahidə olunur, ümumi doğum əmsalı isə tədricən aşağı düşür. Bu proses yalnız Azərbaycana xas deyil və Avropa, Şərqi Avropa, Qafqaz və Mərkəzi Asiyanın bir çox ölkələrində müşahidə olunan ümumi demoqrafik tendensiyanın tərkib hissəsidir. Lakin Azərbaycanın xüsusiyyəti ondan ibarətdir ki, ölkə hələ də nisbətən gənc yaş strukturunu qoruyub saxlasa da, uzunmüddətli perspektivdə yaşlanma prosesinin sürətlənməsi ehtimalı artır. Bu isə bugünkü demoqrafik qərarların gələcək sosial-iqtisadi inkişaf üçün həlledici əhəmiyyət daşıdığını göstərir [1].

Son on ildə Azərbaycanda demoqrafik proseslərin əhəmiyyətli dərəcədə transformasiyaya uğraması diqqəti cəlb edir (qrafik 2). Belə ki, ölkədə təbii artım əmsalı 2014-cü ildəki 12‰-dən 2024-cü ildə 4‰-ə enərək üç qat azalmışdır. Bu tənəzzülün əsas hərəkətverici qüvvəsi doğuş göstəricisinin sistemli aşağı düşməsidir, ölüm göstəricisi isə nisbətən sabit qalmışdır. Doğulanların sayı 2014–2019-cu illər arasında yumşaq templə (18‰-dən 14‰-ə) azalmış, 2020-ci ildən sonra isə düşüş sürətlənərək 2024-cü ildə 10‰-ə çatmışdır. Bu proses aşağıdakı amillər ilə izah edilə bilər:

- Pandemiya dövründə (2020–2021) iqtisadi qeyri-müəyyənliyin ailələrin reproduktiv qərarlarına təsiri;
- Doğuş yaşında olan qadın əhali sayının nisbi azalması;
- Urbanizasiya kimi struktur meyillər;
- Yaşayış xərclərinin artması ilə bağlı iqtisadi məhdudiyyətlər.

Ölənlərin sayı 2014-cü ildə 6‰ təşkil etmiş, pandemiyanın kəskin fazasında (2020–2021) 8‰-ə yüksəlmiş, 2022-ci ildən etibarən isə əvvəlki səviyyəsinə (6‰) qayıtmışdır. Bu, göstəricinin müvəqqəti şok xarakterli olduğunu, doğuş göstəricisindəki azalmanın isə davamlı tendensiya təşkil etdiyini deməyə əsas verir. Digər göstəricilərdən fərqli olaraq, 1000 diri doğulana düşən 1 yaşadək ölən uşaq sayı 2014-cü ildəki 10-dan 2023-cü ildə 18-ə yüksəlmiş, 2024-cü ildə isə qismən (14-ə qədər) geriləmişdir (qrafik 2). Bu ziddiyyətli hərəkət doğulanların ümumi sayının azalması nəticəsində nisbi göstəricinin artırılması effekti, perinatal qayğı sistemində müvəqqəti çətinliklər və ya statistik uçot metodologiyasındakı dəyişikliklərlə əlaqəli ola bilər; təbii ki, dəqiq səbəb müəyyənləşdirmək üçün əlavə klinik və regional məlumat tələb olunur. Aparılan müqayisə göstərir ki, təbii artımın zəifləməsi əsasən struktur xarakterli olub, doğuş yaşında əhalinin azalması, ailə formalaşdırma modellərinin dəyişməsi və iqtisadi amillərlə şərtlənir, ölüm göstəricisindəki dəyişiklik isə pandemiyaya bağlı müvəqqəti hadisə kimi qiymətləndirilməlidir. Tendensiyanın davam etməsi əhalinin yaş strukturunun qocalmasını sürətləndirə və əmək qabiliyyətli əhalinin nisbi payını azalda bilər ki, bu da hədəflənmiş demoqrafik siyasət tədbirlərinin zəruriliyini artırır.

Doğum səviyyəsində müşahidə olunan dəyişikliklərin səbəbləri çoxşaxəlidir və onların yalnız bioloji və ya statistik amillərlə izah edilməsi düzgün olmaz. Son illərdə ali təhsilin genişlənməsi, qadınların əmək bazarında iştirak səviyyəsinin yüksəlməsi, şəhərləşmə prosesinin sürətlənməsi, ailələrin iqtisadi gözləntilərinin dəyişməsi və mənzil təminatı ilə bağlı problemlər gənc ailələrin reproduktiv davranışına birbaşa təsir göstərmişdir. Əvvəlki dövrlərdə ailə qurmaq və övlad sahibi olmaq həyat dövrünün təbii mərhələsi hesab edilirdisə, hazırda bu qərarlar daha çox iqtisadi sabitlik, məşğulluq imkanları və gələcək həyat planları nəzərə alınmaqla qəbul edilir. Beləliklə, doğum

səviyyəsinin azalması yalnız demoqrafik göstərici deyil, sosial və iqtisadi davranış modelinin dəyişməsinin nəticəsi kimi qiymətləndirilməlidir [34].

Qrafik 2.

**Əhalinin təbii artımı, doğulanlar və ölənlər üzrə göstəricilərdə baş verən dəyişikliklər**




**Mənbə:** Qrafik [1; 2] mənbələri əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Yaş strukturunda baş verən dəyişikliklər də Azərbaycanın demoqrafik inkişafında yeni mərhələnin başlandığını göstərir. Əmək qabiliyyətli əhalinin xüsusi çəkisi hələ də yüksək olsa da, doğum səviyyəsinin azalması və ömür uzunluğunun artması nəticəsində yaşlı əhalinin payı tədricən yüksəlir. Bu dəyişiklik qısamüddətli dövrdə ciddi sosial problem yaratmasa da, uzunmüddətli perspektivdə əmək bazarı, pensiya sistemi və səhiyyə xərcləri üçün yeni çağırışlar formalaşdıracaq. Başqa sözlə, Azərbaycanın hazırkı demoqrafik üstünlüyü – nisbətən yüksək əmək qabiliyyətli əhali payı - düzgün iqtisadi siyasət tətbiq olunmadığı təqdirdə gələcəkdə tədricən zəifləyə bilər. Bu baxımdan ölkənin qarşısında duran əsas vəzifə mövcud demoqrafik potensialı insan kapitalına və yüksək məhsuldarlığa çevirməkdir [39]. Ümumilikdə, ölkədə əhalinin yaş strukturunda baş verən dəyişikliklərin təhlilini bu səpgidən də aparmaq məqsədəuyğun olar.

Qrafiq 3-də əks olunan göstəricilər son on ildə Azərbaycanda əhalinin yaş strukturunda qocalma prosesinin dərinləşdiyini göstərir. Ən diqqətəlayiq dəyişiklik uşaq yaşı qruplarında müşahidə olunur: 0-4 yaş qrupunun xüsusi çəkisi 2014-cü ildəki 9%-dən 2024-cü ildə 6%-ə enmişdir. Bu azalma birbaşa doğuş səviyyəsinin son illərdə göstərdiyi tənəzzüllə əlaqədardır; daha az uşaq doğulduqca, ən gənc yaş qrupunun ümumi əhali içindəki payı da qaçılmaz olaraq kiçilir. Eyni zamanda, orta yaş qrupları (30-49 yaş aralığı) xüsusi çəkilərini əsasən qoruyub saxlamış, hətta bəzi qruplarda (30-34, 35-39, 40-44) 1-2% bənddi artım qeydə alınmışdır. Bu, 1990-cı illərin sonu və 2000-ci illərin əvvəllərində doğulan nisbətən çoxsaylı nəslin hazırda həmin yaş dövrünə daxil olması ilə izah edilə bilər, yəni bu artım yeni doğuşların deyil, keçmiş demoqrafik dalğanın "hərəkəti" nəticəsidir. Ən aydın tendensiya isə yaşlı əhali qruplarında müşahidə olunur: 60-64 yaş qrupu 3%-dən 6%-ə, 65-69 yaş qrupu isə 2%-dən 4%-ə yüksəlmişdir. Bu artımın iki səbəbi var:

- Birincisi, orta ömür uzunluğunun artması nəticəsində daha çox insanın bu yaş həddinə çatması;
- İkincisi, gənc qrupların nisbi kiçilməsi fonunda yaşlı qrupların paylarının riyazi olaraq böyüməsi.

Qrafik 3.

**Əhalinin yaş qrupları üzrə xüsusi çəkisi (%)**




**Mənbə:** Qrafik [1; 2] mənbələri əsasında müəlliflər tərəfindən hazırlanmışdır.

Nəticə etibarilə, cəmiyyətdə həm mütləq, həm də nisbi mənada yaşlı əhalinin çəkisi artmışdır. Ümumilikdə, bu dinamika əhalinin "demoqrafik piramidasının" get-gedə yuxarı hissəyə doğru sıxlaşdığını, yəni ənənəvi geniş əsaslı piramida formasından, daha dar əsaslı və nisbətən genişlənmiş orta-yuxarı hissəyə malik struktura keçidin davam etdiyini göstərir. Bu proses davam etdiyi təqdirdə, əmək qabiliyyətli əhaliyə düşən yaşlı asılı əhalinin nisbəti artacaq ki, bu da sosial müdafiə sistemi, pensiya təminatı və səhiyyə xidmətlərinə olan tələbatın planlaşdırılmasında nəzərə alınmalı mühüm amildir.

Azərbaycanın demoqrafik inkişafında urbanizasiya prosesləri də mühüm rol oynayır. Əhalinin böyük hissəsinin iri şəhərlərdə, xüsusilə Bakı və Abşeron iqtisadi rayonunda cəmləşməsi daxili miqrasiyanın intensiv xarakter aldığını göstərir. Bu proses iqtisadi fəallığın müəyyən mərkəzlərdə toplanmasına şərait yaratsa da, regionlar arasında demoqrafik və sosial-iqtisadi fərqlərin dərinləşməsi riskini artırır. Gənc və əmək qabiliyyətli əhalinin regionlardan iri şəhərlərə axını bəzi rayonlarda əhalinin yaşlanmasını sürətləndirir, kənd yaşayış məntəqələrinin inkişaf potensialını zəiflədir və sosial infrastrukturun səmərəliliyinə təsir göstərir. Digər tərəfdən, iri şəhərlərdə mənzil bazarına təzyiqin artması, nəqliyyat və kommunal xidmətlərə tələbatın yüksəlməsi yeni urbanizasiya problemlərini gündəmə gətirir. Həqiqətən də, urbanizasiya yalnız məkan dəyişməsi deyil, həm də demoqrafik və iqtisadi tarazlığın yenidən formalaşması prosesidir [29].

Ölkəmizin ailə institutunda müşahidə olunan dəyişikliklər də qlobal tendensiyalarla müəyyən oxşarlıqlar nümayiş etdirir. Son illərdə nikah yaşının yüksəlməsi, ailələrin orta ölçüsünün kiçilməsi, boşanmaların sayının artması və reproduktiv qərarların daha rasional xarakter alması ailə institutunun yeni inkişaf mərhələsinə keçdiyini göstərir. Bununla yanaşı, ölkədə ailənin sosial dəyəri və institusional əhəmiyyəti hələ də yüksək olaraq qalır. Bu xüsusiyyət Azərbaycanı bir sıra inkişaf etmiş ölkələrdən fərqləndirir və ailə siyasətinin hazırlanmasında milli-mədəni xüsusiyyətlərin nəzərə

alınmasını zəruri edir. Araşdırmalar göstərir ki, Azərbaycanda ailə institutu transformasiya etsə də, onun cəmiyyətin sosial dayanıqlığında oynadığı fundamental rol dəyişməz olaraq qalır.

Azərbaycanın demoqrafik inkişafının müasir mənzərəsi göstərir ki, ölkə artıq klassik yüksək təbii artım modelindən yeni demoqrafik mərhələyə keçid yaşayır. Doğum səviyyəsinin azalması, yaş strukturunun dəyişməsi, urbanizasiyanın sürətlənməsi və ailə davranışındakı transformasiya bir-biri ilə qarşılıqlı əlaqədə inkişaf edir. Bu proseslər hələlik kəskin demoqrafik böhran xarakteri daşımır, lakin uzunmüddətli perspektivdə əmək bazarı, regional inkişaf, sosial müdafiə sistemi və fiskal dayanıqlılıq üçün strateji əhəmiyyət kəsb edən çağırışlar formalaşdırır. Buna görə də demoqrafik siyasət yalnız statistik göstəricilərin izlənilməsi ilə məhdudlaşmamalı, iqtisadi inkişaf strategiyasının ayrılmaz elementi kimi formalaşdırılmalıdır.

*Azərbaycanda ailə institutunun transformasiyasının səbəblərinə və müasir ailə davranışının xüsusiyyətlərinə daha həssas yanşmaq əhəmiyyət kəsb edir.*

Azərbaycan cəmiyyətində ailə institutu tarixən sosial həmrəyliyin, nəsillərarası davamlılığın və milli-mənəvi dəyərlərin əsas daşıyıcısı olmuşdur. Bununla belə, son iyirmi ildə ölkədə baş verən iqtisadi modernləşmə, urbanizasiya, əmək bazarının transformasiyası və qlobal informasiya məkanına inteqrasiya ailə münasibətlərinin mahiyyətində də mühüm dəyişikliklər yaratmışdır. Bu dəyişikliklər ailə institutunun zəifləməsi kimi deyil, onun yeni sosial-iqtisadi şəraitə uyğunlaşması prosesi kimi qiymətləndirilməlidir. Çünki ailənin cəmiyyət üçün funksional əhəmiyyəti qorunub saxlanılsa da, ailə qurmaq, övlad sahibi olmaq və ailədaxili münasibətlərin təşkili ilə bağlı davranış modelləri əvvəlki nəsillərlə müqayisədə əhəmiyyətli dərəcədə dəyişmişdir [34].

Ölkədə müşahidə olunan əsas meyllərdən biri ilk nikah yaşının yüksəlməsidir. Bu prosesin arxasında yalnız sosial davranışın dəyişməsi deyil, həm də iqtisadi və institusional amillər dayanır. Gənclər arasında ali təhsilin əhatə dairəsinin genişlənməsi, peşəkar karyera qurmaq istəyinin güclənməsi, əmək bazarında sabit məşğulluğun əldə edilməsinin çətinləşməsi və mənzil təminatı problemləri ailə qurmaq qərarının daha gec qəbul edilməsinə səbəb olur. Əgər əvvəlki dövrlərdə nikah iqtisadi müstəqilliyin başlanğıcı hesab edilirdisə, hazırda iqtisadi müstəqillik ailə qurmağın ilkin şərtlərindən birinə çevrilmişdir. Ölkə təcrübəsi göstərir ki, nikah yaşının yüksəlməsi demoqrafik davranışın dəyişməsinin deyil, sosial-iqtisadi inkişafın yeni mərhələsinin nəticəsi kimi çıxış edir [1].

Nikah yaşının artması doğum davranışına da birbaşa təsir göstərir. Reproduktiv dövrün gec başlaması ailələrin planlaşdırdığı övlad sayını azaldır və ilk doğumun daha yuxarı yaşlara keçməsinə səbəb olur. Bununla yanaşı, uşağın böyüdülməsi ilə bağlı iqtisadi məsuliyyətin artması, keyfiyyətli təhsil və səhiyyə xidmətlərinə çəkilən xərclərin yüksəlməsi ailələrin reproduktiv qərarlarını daha ehtiyatlı verməsinə gətirib çıxarır. Müasir Azərbaycan ailəsində əsas prioritet çoxuşaqlı ailə modeli deyil, uşaqların sağlam inkişafı, keyfiyyətli təhsili və yüksək insan kapitalına malik fərd kimi formalaşmasıdır. Bu dəyişiklik insan kapitalına investisiyanın artması baxımından müsbət qiymətləndirilsə də, uzunmüddətli perspektivdə doğum səviyyəsinin azalmasına təsir edən əsas amillərdən biri hesab olunur [39].

Qadınların təhsil və məşğulluq səviyyəsinin yüksəlməsi Azərbaycanda ailə institutunun transformasiyasına təsir göstərən ən mühüm struktur dəyişikliklərdən biridir. Son illərdə ali təhsil alan qadınların sayının artması, onların dövlət və özəl sektorda fəallığının yüksəlməsi iqtisadi müstəqilliyi gücləndirmişdir. Bu proses gender bərabərliyinin inkişafı baxımından mühüm nailiyyət hesab olunsa da, ailə və əmək fəaliyyəti arasında tarazlığın qorunmasını daha aktual məsələyə çevirmişdir. Əgər institusional dəstək – uşaq baxımı xidmətləri, çevik məşğulluq formaları və

valideyn məzuniyyəti mexanizmləri kifayət qədər inkişaf etmirsə, qadınların peşəkar inkişafı ilə ailə öhdəlikləri arasında seçim etmək məcburiyyəti yarana bilər. Bu isə nikahın və doğumun gecikməsinə təsir göstərən əlavə amilə çevrilir [15].

Urbanizasiya və mənzil bazarında baş verən dəyişikliklər də ailə davranışının transformasiyasını sürətləndirir. Bakı və Abşeron iqtisadi rayonunda mənzil qiymətlərinin yüksəlməsi, kirayə bazarında qeyri-sabitlik və yaşayış xərclərinin artması gənc ailələrin müstəqil həyat qurmasını çətinləşdirir. Nəticədə, nikahın gecikməsi və reproduktiv qərarların təxirə salınması müşahidə olunur. Burada səbəb–nəticə əlaqəsi kifayət qədər aydındır: mənzil təminatı ilə bağlı qeyri-müəyyənlik ailə qurmaq motivasiyasını zəiflətmir, lakin bu qərarın qəbul edilmə vaxtını dəyişdirir. Buna görə mənzil siyasəti artıq yalnız sosial deyil, həm də demoqrafik siyasətin mühüm komponenti kimi qiymətləndirilməlidir [21].

Rəqəmsallaşma və sosial şəbəkələrin geniş yayılması da ailə münasibətlərinə yeni təsir mexanizmləri formalaşdırmışdır. İnformasiya texnologiyalarının inkişafı insanların ünsiyyət imkanlarını genişləndirsə də, ailədaxili münasibətlərdə gözləntilərin dəyişməsinə, həyat tərzinin fərdiləşməsinə və sosial müqayisələrin artmasına səbəb olmuşdur. Xüsusilə gənclər arasında ailə qurmaq qərarı əvvəlki nəsillərlə müqayisədə daha çox fərdi inkişaf, karyera və həyat keyfiyyəti ilə əlaqələndirilir. Bu meyl Azərbaycanın milli-mədəni xüsusiyyətlərini tam dəyişdirməsə də, qlobal davranış modellərinin yerli ailə institutuna təsirinin artdığını göstərir [25].

Aparılan təhlil göstərir ki, Azərbaycanda ailə institutunun transformasiyası ayrı-ayrı sosial hadisələrin məcmusu deyil, iqtisadi inkişaf, urbanizasiya, təhsil səviyyəsinin yüksəlməsi, qadın məşğulluğu, mənzil bazarı və rəqəmsallaşmanın qarşılıqlı təsiri nəticəsində formalaşan kompleks prosesdir. Bu baxımdan nikah yaşının yüksəlməsi, doğum davranışının dəyişməsi və ailə modelinin transformasiyası ənənəvi dəyərlərin zəifləməsi kimi deyil, müasir sosial-iqtisadi şəraitə uyğunlaşmanın təzahürü kimi qiymətləndirilməlidir. Dövlət siyasətinin əsas məqsədi bu dəyişiklikləri məhdudlaşdırmaq deyil, gənc ailələrin iqtisadi sabitliyini, mənzil təminatını, məşğulluq imkanlarını və ailə–əmək balansını gücləndirməklə demoqrafik inkişaf üçün əlverişli institusional mühit formalaşdırmaq olmalıdır.

## Nəticə

Aparılan təhlil Azərbaycanın demoqrafik inkişafının yeni, keyfiyyətcə fərqli mərhələyə qədəm qoyduğunu təsdiqləyir; bu, nə klassik yüksək artım, nə də sürətli əhali azalması ilə səciyyələnən, əksinə, gələcək onilliklərin sosial-iqtisadi trayektoriyasını bilavasitə formalaşdıracaq keçid mərhələsidir. Doğum səviyyəsinin azalması, yaş strukturunun dəyişməsi, urbanizasiya və ailə davranışının transformasiyası ayrı-ayrı proseslər kimi deyil, qarşılıqlı şərtlənən vahid sistem kimi çıxış edir və bu sistemin idarə olunma keyfiyyəti əmək bazarının, regional inkişafın və dövlət maliyyəsinin gələcək vəziyyətini müəyyənləşdirəcək [28]. Bu şəraitdə əsas strateji sual əhalinin sayını necə artırmaqdan çox, mövcud insan resursunun keyfiyyətini necə yüksəltməkdir. Ölkənin hazırkı nisbətən əlverişli yaş strukturu daimi üstünlük deyil, məhdud müddətə malik "demoqrafik pəncərə"dir: bu dövrdə təhsilə, peşə hazırlığına və əmək məhsuldarlığına yönəlmiş sistemli investisiya edilmədiyi təqdirdə, hazırkı üstünlük tezliklə iqtisadi məhdudiyyətə çevrilə bilər **[39].**

Regional müstəvidə isə fərqli, lakin bağlı bir risk özünü göstərir: daxili miqrasiyanın Bakı-Abşeron istiqamətində cəmləşməsi regionları həm iqtisadi fəallıqdan, həm də gənc məhsuldar qüvvədən məhrum edir, bu isə əraziyə bağlı inkişaf fərqlərinin dərinləşməsi ilə nəticələnə bilər [2].

Bənzər məntiq ailə institutuna da aiddir: nikah yaşının yüksəlməsi və reproduktiv qərarların dəyişməsi sadəcə statistik meyl deyil, sosial münasibətlərin strukturca yeniləndiyinin göstəricisidir. Beynəlxalq təcrübə (xüsusilə Fransa və İsveç nümunəsi) onu göstərir ki, bu dəyişikliyə inzibati qadağa və ya ənənəni bərpa etməyə çalışan tədbirlərlə deyil, mənzil, uşaq baxımı və çevik məşğulluq kimi institusional dəstək alətləri ilə cavab vermək daha səmərəlidir [23].

Bu nəticələr məcmusu bir konseptual iddiaya gətirib çıxarır: demoqrafiya artıq yalnız sosial siyasətin predmeti kimi qiymətləndirilə bilməz, çünki onun təsir dairəsi iqtisadi artım, fiskal dayanıqlıq və milli təhlükəsizliklə üst-üstə düşür. Bu yanaşmadan çıxış edərək, Azərbaycan üçün ailə institutu, insan kapitalı, əmək bazarı, fiskal dayanıqlıq və regional inkişafı vahid zəncirdə birləşdirən inteqrasiya olunmuş idarəetmə modelinin formalaşdırılması zəruridir. Bu zaman diqqət ayrı-ayrı demoqrafik göstəricilərin "dəyişdirilməsinə" deyil, onların bağlı olduğu institusional zəminin gücləndirilməsinə yönəlməlidir. Nəticə etibarilə, ölkənin qlobal demoqrafik transformasiya şəraitində rəqabət qabiliyyəti hər hansı bir göstəricinin təcrid olunmuş yaxşılaşdırılmasından deyil, məhz bu sistemli, çoxsahəli əlaqələndirmədən asılı olacaqdır.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanın demoqrafik göstəriciləri. Bakı: ARDSK. https://www.stat.gov.az/
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Azərbaycanın regionları. Bakı: ARDSK. https://www.stat.gov.az/
3. Beck, U., & Beck-Gernsheim, E. (2002). Individualization: Institutionalized Individualism and Its Social and Political Consequences. Cambridge: Polity Press.
4. Cabinet Office, Government of Japan. (2024). Annual Report on the Ageing Society 2024. Tokyo: Government of Japan. https://www8.cao.go.jp/kourei/english/annualreport/
5. Central Intelligence Agency. (2024). Median age. The World Factbook. https://www.cia.gov/the-world-factbook/field/median-age/
6. Countrymeters. (2026). Sweden population (2026) live. https://countrymeters.info/en/Sweden
7. DD News. (2026, May 26). South Korea's birthrate, the world's lowest, rises again amid signs of easing demographic crisis. https://ddnews.gov.in/en/south-koreas-birthrate-the-worlds-lowest-rises-again-amid-signs-of-easing-demographic-crisis/
8. European Commission. (2024). Employment and Social Developments in Europe. https://employment-social-affairs.ec.europa.eu/
9. European Commission. (2024). The 2024 Ageing Report: Economic and Budgetary Projections for the EU Member States (2022–2070). Directorate-General for Economic and Financial Affairs. https://economy-finance.ec.europa.eu/publications/2024-ageing-report-economic-and-budgetary-projections-eu-member-states-2022-2070_en
10. Eurostat. (2024). Population Structure and Ageing. Luxembourg: Publications Office of the European Union. https://ec.europa.eu/eurostat/
11. Eurostat. (2025a). Fertility Statistics. Statistics Explained. https://ec.europa.eu/eurostat/statistics-explained/index.php?title=Fertility_statistics
12. Eurostat. (2025b). Demography of Europe – 2025 Edition. Interactive Publications. https://ec.europa.eu/eurostat/web/interactive-publications/demography-2025

13. Giddens, A. (1992). The Transformation of Intimacy: Sexuality, Love and Eroticism in Modern Societies. Stanford University Press.
14. Hungarian Central Statistical Office. (2025). Live births, total fertility rate. KSH Stadat. https://www.ksh.hu/stadat_files/nep/en/nep0006.html
15. International Labour Organization. (2024). World Employment and Social Outlook: Trends 2024. Geneva: ILO. https://www.ilo.org/global/research/global-reports/weso
16. International Monetary Fund. (2024). Fiscal Monitor: Putting a Lid on Public Debt. Washington, DC: IMF. https://www.imf.org/en/Publications/FM
17. International Monetary Fund. (2024). World Economic Outlook: Steady but Slow. Washington, DC: IMF. https://www.imf.org/en/Publications/WEO
18. International Organization for Migration. (2024). World Migration Report 2024. Geneva: IOM. https://worldmigrationreport.iom.int/world-migration-report-2024
19. Lesthaeghe, R. (2020). The Second Demographic Transition, 1986–2020: Sub-Replacement Fertility and Rising Cohabitation. In D. Poston (Ed.), Low Fertility Regimes and Demographic and Societal Change. Springer. https://doi.org/10.1007/978-3-030-35079-6
20. Nikkei Asia. (2026, February 25). South Korea's fertility rate rises for second year as marriages increase. https://asia.nikkei.com/economy/demography/south-korea-s-fertility-rate-rises-for-second-year-as-marriages-increase
21. Organisation for Economic Co-operation and Development. (2021). Brick by Brick: Building Better Housing Policies. OECD Publishing. https://www.oecd.org/housing/brick-by-brick.htm
22. Organisation for Economic Co-operation and Development. (2023). Pensions at a Glance 2023: OECD and G20 Indicators. OECD Publishing. https://www.oecd.org/pensions/pensions-at-a-glance/
23. Organisation for Economic Co-operation and Development. (2024). Family Database. https://www.oecd.org/els/family/database.htm
24. Organisation for Economic Co-operation and Development. (2024). SF2.1. Fertility Rates. OECD Family Database. https://webfs.oecd.org/els-com/Family_Database/SF_2_1_Fertility_rates.pdf
25. Organisation for Economic Co-operation and Development. (2024). Society at a Glance 2024: OECD Social Indicators. OECD Publishing. https://doi.org/10.1787/918d8db3-en
26. OSW Centre for Eastern Studies. (2026, January 23). Hungary's ongoing demographic decline: An increase in birth rates is the only hope. https://www.osw.waw.pl/en/publikacje/osw-commentary/2025-04-14/hungarys-ongoing-demographic-decline-increase-birth-rates-only
27. United Nations. (2023). World Social Report 2023: Leaving No One Behind in an Ageing World. New York: United Nations. https://desa.un.org/publications/world-social-report-2023
28. United Nations, Department of Economic and Social Affairs, Population Division. (2024). World Population Prospects 2024. United Nations. https://population.un.org/wpp/
29. United Nations. (2024). World Urbanization Prospects. United Nations Department of Economic and Social Affairs. https://population.un.org/wup/
30. United Nations Children's Fund. (2024). The State of the World's Children 2024. New York: UNICEF. https://www.unicef.org/reports

31. United Nations Development Programme. (2024). Human Development Report 2023/2024. UNDP. https://hdr.undp.org
32. United Nations Economic Commission for Europe. (2025). Review of Ageing-Related Statistics in the UNECE Region. Geneva: UNECE. https://unece.org/
33. UNESCO. (2024). Global Education Monitoring Report 2024: Leadership in Education. Paris: UNESCO. https://www.unesco.org/gem-report
34. United Nations Population Fund. (2023). State of World Population 2023. UNFPA. https://www.unfpa.org/swp2023
35. United Nations Population Fund. (2024). State of World Population 2024: Interwoven Lives, Threads of Hope. UNFPA. https://www.unfpa.org/swp2024
36. United Nations Population Fund. (2025). State of World Population 2025: The Real Fertility Crisis: The Pursuit of Reproductive Agency in a Changing World. UNFPA. https://www.unfpa.org/swp2025
37. World Bank. (2021). Groundswell Part 2: Acting on Internal Climate Migration. Washington, DC: World Bank. https://www.worldbank.org/en/topic/climatechange/publication/groundswell-climate-internal-migration
38. World Bank. (2023). Silver Opportunity: Building Integrated Care Systems for Older Adults. Washington, DC: World Bank. https://www.worldbank.org/
39. World Bank. (2025). World Development Indicators. World Bank. https://databank.worldbank.org/source/world-development-indicators
40. World Economic Forum. (2024). Global Risks Report 2024 (19th ed.). Geneva: World Economic Forum. https://www.weforum.org/reports/global-risks-report-2024/
41. World Health Organization. (2024). Ageing and Health. WHO. https://www.who.int/news-room/fact-sheets/detail/ageing-and-health

**Daxil olub: 14.01.2026.**
**Çapa qəbul olunub: 04.02.2026.**